RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 217 (8240) ÇƏRŞƏNBƏ, 2 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Dünya yenidən Bakıda toplaşır



## Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi yüksək beynəlxalq nüfuzun və etimadın nümunəsidir

**Azərbaycan növbəti mötəbər beynəlxalq tədbirə evsahibliyi etməyə hazırlaşır. Oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin dövlət və hökumət başçılarının "Bandunq prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda XVIII zirvə görüşü keçiriləcək. Bu, son illərdə respublikamızda keçirilən ən mühüm qlobal siyasi tədbirlərdən biri olacaq. İkincisi isə bu tədbir QH-nin 1989-cu ildə keçmiş Yuqoslaviyada keçirilmiş Belqrad sammitindən sonra Avropada təşkil olunacaq ilk zirvə görüşü kimi tarixə düşəcək.**

### Qlobal məsələlərin müzakirə edildiyi mühüm forum

Xatırladaq ki, bir sıra dövlətlərin vaxtilə soyuq müharibə dövründə iki siyasi-hərbi qütb arasında qarşıdurmaya cəlb edilməmələri üçün 1961-ci ildə Belqradda təsis etdiyi QH qısa müddət ərzində sülh, təhlükəsizlik və inkişafa dair məsələlərin müzakirə edildiyi mühüm beynəlxalq foruma çevrilib. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rol oynayır. Xüsusən BMT-nin islahatı üzrə illərdən bəri aparılan proseslərdə irəliləyişin əldə olunmaması alternativ format kimi Qoşulmama Hərəkatının beynəlxalq önəmini daha da artırıb. Bu baxımdan, Soyuq müharibənin başa çatmasına baxmayaraq hərəkat öz aktuallığını qoruyub saxlayıb və öz sıralarını daha da genişləndirib. Təsadüfi deyil ki, son 25 il ərzində hərəkata üzv dövlətlərin sayı 99-dan 120-yə yüksəlib. Həmçinin burada 17 müşahidəçi dövlət və 10 müşahidəçi beynəlxalq təşkilat da təmsil olunur. Beləliklə, 147 üzv Qoşulmama Hərəkatının fəaliyyətində iştirak edir.

Göründüyü kimi, QH üzvlərinin sayına görə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır. Bu fakt QH-nin müasir beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən necə bir mühüm çoxtərəfli platforma olmasını göstərir. Dünya dövlətlərinin üçdəikisini əhatə edən bir təsisatın mühüm toplantılarında müzakirə edilən məsələlər şübhəsiz ki, BMT Baş Assambleyasının gündəliyinin formalaşmasına böyük təsir göstərir. Bu həm də onu göstərir ki, əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan QH konkret tarixi kontekstdə yaranmasına baxmayaraq, müasir dünyada da öz aktuallığını itirməyib və bu qurum beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən biridir.

Hərəkatın 2018-ci ilin aprelində Bakıda keçirilmiş Aralıq Nazirlər Konfransında çıxış edən Prezident İlham Əliyev QH-nin dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynadığını bəyan edib: *"Yarım əsrdən çoxdur ki, Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliği ilə məşğuldur. Dünyanın ən böyük təşkilatlarından olan Qoşulmama Hərəkatı dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayır.*

*Ardı 7-ci səh.*

# Bakı dünyanın ən gözəl şəhərlərindən biridir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 1-də Bakının Nərimanov rayonundakı Atatürk prospektində yerləşən parkda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

*Ardı 2-ci səh.*

# Azərbaycanda sosial-iqtisadi inkişaf demoqrafik inkişafla uzlaşır



Oktyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə həyata keçirilən növbəti siyahıyaalınmada iştirak edərək siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırıb.

*Ardı 2-ci səh.*

# Azərbaycan Asiyanı həm Qərblə, həm də Şimalla birləşdirir

## Prezident İlham Əliyevin geoiqtisadi təşəbbüsləri əsasında qitələr arasında körpülərin qurulması ölkəmizə böyük dividendlər gətirəcək

"Müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla biz yalnız ölkəmizi mühüm nəqliyyat mərkəzinə çevirmədik. Eyni zamanda biz "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığa töhfə verdik. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. "Bir kəmər, bir yol" təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir".

Bu il aprelin 25-27-də Çinin paytaxtı Pekində keçirilən "Bir kəmər, bir yol" II Beynəlxalq Əməkdaşlıq Forumunda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın nəqliyyat-tranzit imkanları və bu istiqamətdə reallaşdırılan layihələri dəyərləndirərkən vurğulayıb ki, ölkəmiz öz coğrafi mövqeyindən bəhrələnərək Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırıb. Məhz bunun sayəsində açıq dənizə çıxışı olmayan bir ölkə beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilib.

Əlverişli coğrafi mövqeyə malik olan və tarixən ticarət dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan bu üstünlüyündən səmərəli istifadə edir. Artıq demək olar ki, nəqliyyat-logistika aspektlərində Azərbaycan regionun mərkəzi qovşağı hesab olunur. Ölkəmizin ərazisindən keçən "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın logistik mərkəzə çevrilməsi üçün real imkanlar yaradır.

*Ardı 7-ci səh.*

# İslahatçı Prezidentin ölkəsi də beynəlxalq reytinqlərdə öndədir




Azərbaycan Dünya Bankının nüfuzlu "Doing Business 2020" hesabatında ən islahatçı 20 ölkə sırasına daxil edilmişdir. Bu sənəddə göstərilir ki, Azərbaycan "Doing Business" üzrə dörd sahədə sahibkarlıq fəaliyyətinin asanlaşdırılması ilə bağlı islahatlar həyata keçirmişdir.

Ölkəmizdə əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların hüquqlarının qorunması və müqavilələrin icrasının təmin edilməsi ilə bağlı tətbiq edilən yeniliklər Dünya Bankının "Doing Business 2020" hesabatının diqqətindən yayınmamışdır.

Həmçinin bu mötəbər qurumun hesabatında məxsusi olaraq qeyd edilir ki, paytaxtın kadastr xəritəsinin tərtib olunması və hər bir fərdi torpaq sahəsinin qeydiyyatı, mövcud sənədləşmənin təkmilləşdirilməsi və daşınmaz əmlak prosedurlarının çevikliyi nəticəsində daşınmaz əmlakın qeydiyyatı prosesi daha da sürətlənmişdir. Minoritar investorların hüquqlarının müdafiəsi tərəflərin imzaladığı əlverişsiz sazişlər üzrə məsuliyyətin direktorlar üzərinə qoyulmasından sonra güclənmişdir. Kommersiya ilə bağlı mübahisələr yarandıqda tərəflərin onlayn qaydada müraciət göndərmək və vasitəçilik etmək üçün maddi stimul əldə etmək hüququ da müsbət tendensiya kimi göstərilir. Qeyd edək ki, ölkəmiz dünyanın iqtisadi müstəvisində müxtəlif nüfuzlu reytinq agentliklərinin keçirdikləri əksər sorğular da ön yerdədir.

Fond MDB ölkələri üçün builki iqtisadi artımı 1,9 faiz, gələn il üçün isə 2,4 faiz həcmində proqnozlaşdırmışdı. Rusiya istisna olmaqla digər MDB ölkələrində ÜDM bu il və gələn il müvafiq olaraq 3,5 və 3,7 faiz həcmində idi.

ABŞ-ın Çinə, Rusiyaya və İrana tətbiq edə biləcəyi sanksiyaların bədbin perspektivləri və dünyada getdikcə güclənən geopolitik silkələnmələr enerji daşıyıcılarının qiymətlərindəki sabitliyi pozur və bütün ölkələrdə investisiyaların və uzunmüddətli istehlak mallarına olan tələbatın həcminin azalmasına səbəb olur. Əsas hissəsini maşınqayırma və istehlak məhsulları təşkil edən dünya ticarətinin dinamikasında süstlük nəzərə çarpır. 2020-ci ildə proqnozlaşdırılan artım tempi isə dayanıqlı deyil və bütünlükdə dünya iqtisadiyyatının inkişafında risklərin meydana gəlməsi ehtimalını artırır.

*Ardı 7-ci səh.*

# Bakı dünyanın ən gözəl şəhərlərindən biridir

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya parkda görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, parkda yenidənqurma işlərinə cari ilin may ayından başlanılıb. Layihə çərçivəsində parkda əsaslı yenidənqurma işləri aparılıb, landşaft dizaynı yenilənib. Bütün yaş qruplarına aid vətəndaşlar nəzərə alınaraq onlar üçün xüsusi guşələr yaradılıb. Parkda uşaq əyləncə və trenajor qurğuları quraşdırılıb. Burada, həmçinin konsert meydançası da var.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycanda sosial-iqtisadi sahədə həyata keçirilən layihələr ölkəmizin ümumi inkişafına sanballı töhfələr verib. Təsadüfi deyil ki, bu gün Azərbaycan sosial-iqtisadi inkişafına görə dünyada lider ölkələrdən biridir. Əldə olunan nailiyyətlər Azərbaycanın bütün regionlarının, o cümlədən paytaxt Bakının da timsalında aydın görünür. Dövlət başçısının tapşırıq və göstərişlərinə əsasən paytaxtımızda icra olunan layihələr nəticəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Paytaxt Bakı gündən-günə abadlaşır, müasirləşir və yenilənir. Bu baxımdan yeni park və xiyabanların salınması, mövcudlarının yenidən qurulması, sosial obyektlərin inşası, ictimai yerlərin istifadəyə verilməsi xüsusi rol oynayır. Nərimanov rayonundakı Atatürk prospektində yerləşən parkın əsaslı şəkildə yenidən qurulması da mühüm əhəmiyyət daşıyır. Bu layihənin icrası, eyni zamanda, son dövrlərdə paytaxtımızda aparılan abadlıq-quruculuq işlərinin həcmini də nümayiş etdirir və bu istiqamətdə görülən tədbirlərin ardıcıl xarakter aldığını göstərir. Ümumilikdə indiyədək şəhərimizin daha da abadlaşdırılması və müasirləşdirilməsi istiqamətində görülən işlər vətəndaşların istirahətinin, asudə vaxtlarının səmərəli təşkilinə hərtərəfli imkan yaradır. Bakının müasir sosial infrastrukturundan paytaxt sakinləri ilə yanaşı, şəhərimizin çoxsaylı qonaqları da istifadə edirlər. Şübhəsiz ki, bütün zəruri infrastrukturla təchiz olunan belə müasir parkların yaradılması turistlərin istirahətinin dolğun və maraqlı təmin olunması işində, onların ölkələrinə Bakıdan zəngin təəssüratlarla qayıtmalarında da böyük rol oynayır. Ümumi sahəsi 6,5 hektar olan bu istirahət məkanının yenidən qurulması bir daha nümayiş etdirir ki, Azərbaycan dövləti tərəfindən insanların rahatlığı, onların sağlamlığı, bir sözlə, vətəndaşların sosial məsələlərinin həllinə daim xüsusi həssaslıqla yanaşılır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda sakinlərlə görüşdülər.

**Sakinlər:** Xoş gördük Sizi, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Salam, xoş gördük.

**Sakin:** Bu parkda yaradılan gözəlliyə görə çox sağ olun. Allah Sizə ömür versin. İllər boyu yaradırsınız, qurursunuz. Dost görür sevinir, düşmən görür gözü kor olur. Dünya qan çanağına dönüb. Amma Allaha şükürlər olsun ki, dövlətimiz, ölkəmiz inkişaf edir. Bu inkişaf Sizin əməyinizin nəticəsidir. Fəxr edirik ki, müdrik Prezidentimiz, birinci xanımımız var. Allah Sizə cansağlığı versin. Mənim 7 nəvəm var, gəlib burada istirahət edirəm. Bütün bunlara görə çox sağ olun, Allah Sizi qorusun.









**Prezident İlham ƏLİYEV:** Sağ olun. Mən ilin əvvəlində burada idim, yeni İnnovasiya Mərkəzinin açılışında. Oradan çıxanda gördüm ki, bu parkın vəziyyəti çox acınacaqlıdır, dözülməzdir. Göstəriş verdim ki, burada abadlıq işləri aparılsın və 6,5 hektarı əhatə edən bu park qısa müddət ərzində yenidən quruldu, ən gözəl səviyyəyə çatdırıldı. İndi burada yaşlı nəslin, uşaqların, yeniyetmələrin və gənclərin istirahəti üçün bütün imkanlar var. Ümumiyyətlə, Bakı son illər ərzində bağlar və parklar şəhərinə çevrilibdir. Deyə bilərəm ki, parkların sayına görə biz dünya miqyasında ən qabaqcıl yerlərdəyik.

**Sakin:** İndi Bakı dünyanın göz muncuğudur.

**Prezident İlham ƏLİYEV:** İndi Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Baxın, son illərdə şəhərimizdə nə qədər park salınıb. İlk növbədə, bizim ən böyük parkımız bulvar. Əvvəllər bulvarın uzunluğu 3 kilometr idi, indi 15 kilometrdir. Hər tərəf yaşıllıq, hər tərəf gözəl, hər tərəf abad. Heydər Əliyev Mərkəzinin və Konqres Mərkəzinin ətrafında 20 hektarı əhatə edən böyük bir park var. İndi uşaqlar, yaşlı nəsil orada istirahət edir. Yusif Səfərov küçəsindəki park. Orada da yöndəmsiz binalar var idi, infrastruktur dağılmışdı. Orada da park salındı. Yəni, bu abadlıq-quruculuq işləri vətəndaşlar üçündür. Çünki vətəndaşlar ictimai yerlərdən istifadə etməlidirlər. Bu parkda da çox gözəl şərait yaradılıb.

Bakı şəhərinin problemlərinin həlli istiqamətində böyük işlər görülür. Bilirsiniz ki, bu yaxınlarda metronun "Koroğlu" stansiyasının yanında yeni Nəqliyyat Mübadilə Mərkəzinin açılışını qeyd etdik. Yeni avtobuslar gətirilir. Bu il 300 avtobus gətirilib, əvvəlki dövrlərdə də gətirilib. Gələn il də ən azı 300 müasir avtobus gətiriləcək. Bakı o şəhərlərdəndir ki, metro tikintisi gedir. Deyə bilərəm ki, MDB məkanında yalnız Rusiyada və Azərbaycanda metro tikintisi davam etdirilir. Bu il 30 yeni vaqon gətirilib. Bu vaqonlarda həm kondisioner, həm də gözəl şərait var. Bütün bunlar vətəndaşların rahatlığı üçün edilir. İndi mənim təşəbbüsümlə nümunəvi həyətlər qurulur. Bütün həyətlər abadlaşdırılacaq və həyətlərdə bütün şərait yaradılacaq. Lift təsərrüfatı yenilənir. Bu məqsədlə 40 milyon manat vəsait ayrılıb. İcra başçısı, məlumat ver, indiyədək neçə lift dəyişdirilib?

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı **Eldar Əzizov:** Artıq 50 lift quraşdırılıb. Sizin tapşırığınıza uyğun olaraq, ilin axırınadək 500-ə qədər olacaq.

**Prezident İlham ƏLİYEV:** Yəni, bütün bunlar Bakının həm gözəlliyi, abadlığı, eyni zamanda, vətəndaşların rahatlığı üçündür. Biz bu işləri davam etdirəcəyik. Bakının hər bir guşəsi abad, gözəl olmalıdır. Vətəndaşlar üçün çox gözəl imkanlar yaradılmalıdır.

**Sakin:** Allah Sizə cansağlığı versin. İnsanlar Sizi sevir və dəstəkləyir. Həmişə deyirik ki, Prezidentimiz camaatın arasındadır. Onun gecəsi-gündüzü ancaq camaatı düşünməkdir.

**Prezident İlham ƏLİYEV:** Belə də olmalıdır. Mənə də güc verən vətəndaşların dəstəyidir. Mən bu dəstəyə arxalanıram, güvənirəm. Bu, mənə güc verir. Bu gün Azərbaycan dünya miqyasında sabitlik məkanıdır, inkişaf diyarıdır. Bundan sonra da biz ancaq yüksələn xətlə inkişaf edəcəyik, buna heç kimin şübhəsi olmasın.

**Sakin:** Cənab Prezident, Sizdə də, xanımınızda da çox böyük səmimiyyət var. Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Digər sakin:** Cənab Prezident, mən də öz növbəmdə Sizə, Mehriban xanıma minnətdarlığımı bildirirəm. Sizlərlə görüşmək çox xoş oldu. Açıq havada belə gözəl müasir park yaratdığınız üçün Sizə minnətdarlığımı ifadə etmək istəyirəm. Həqiqətən parkda gözəl şərait var, müasir idman qurğuları quraşdırılıb, şahmat meydançası, velosiped, qaçış zolaqları yaradılıb. Biz də bu ərazidə yaşayırıq. Əvvəllər asudə vaxtlarımızda dostlarımızla istirahət üçün kənara gedirdik. İndi burada müasir, gözəl şərait yaradılıb. Biz tez-tez buraya gələcəyik. Buna görə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Şəhərin hər yerində gözəl parklar, ictimai zonalar olmalıdır və bunu yaradırıq.

**Sakinlər:** Sağ olun, cənab Prezident, bütün azərbaycanlılar Sizin arxanızdadır.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır







Oktyabrın 1-də Bakının Nəsimi rayonunda 28 May, Dilarə Əliyeva və Fikrət Əmirov küçələrinin kəsişməsində yeni park istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda yaradılan şəraitlə tanış olublar.

Dövlət başçısının tapşırığı ilə salınan yeni parkda sakinlərin və turistlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb.

Müasir üslubda, orijinal dizaynda qurulan bu cür istirahət mərkəzlərinin istifadəyə verilməsi ilə paytaxtın gəzməli yerlərinə daha bir neçə ünvan əlavə olundu. Belə layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır və yüksək keyfiyyətlə yerinə yetirilir. Bütün bunlar isə sosial layihə olmaqla yanaşı, həm də ümumilikdə ölkəmizin iqtisadi qüdrətini nümayiş etdirir.

Prezident İlham Əliyev paytaxtdakı binaların dam örtüklərinin təmiri və həyətlərin abadlaşdırılması barədə tapşırıqlarını verdi.

# Azərbaycanda sosial-iqtisadi inkişaf demoqrafik inkişafla uzlaşır

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, ölkəmizdə keçirilən növbəti siyahıyaalınma barədə Prezident İlham Əliyevə məlumat verən Dövlət Statistika Komitəsinin sədri **Tahir BUDAQOV** dedi:

- Cənab Prezident, fərmanınıza əsasən bu gün ölkədə əhalinin siyahıyaalınmasına start verilir. İlk növbədə, cənab Prezident, tərtib olunmuş siyahıyaalma və sorğu vərəqələrinin cavablandırılmasını Sizdən xahiş edərdik. Bu siyahıyaalmanın keçirilməsi zərurəti ondan irəli gəlir ki, son illərdə insanların yaşayış, mənzil şəraitində çox ciddi dəyişikliklər baş vermişdir. Miqrasiya proseslərində də müəyyən dəyişikliklər olmuşdur. Bütün bunlar nəzərə alınaraq keçirilən bu siyahıyaalmanın nəticəsində insanların rifah halında, onların gəlir mənbələrində, mənzil-məişət şəraitində baş verən dəyişikliklərlə yanaşı, əhalinin ailə tərkibi, ev təsərrüfatlarının tərkibi, hər bir şəxs barədə toplanılan məlumatlar ölkədə həm daxili, həm xarici miqrasiya proseslərinə, eyni zamanda, insanların məşğulluq statusuna, onların gəlir mənbələrinə, təhsil səviyyəsinə dair bir çox sosial-iqtisadi göstəricilərin əldə edilməsinə imkan yaradacaq.

Tahir Budaqov ilk dəfə olaraq siyahıyaalınmaya sosial statusla bağlı məsələlərin daxil edildiyini bildirdi. O, siyahıyaalınmada Strateji Yol xəritələrindən irəli gələn məsələlərin monitorinqi, eləcə də dayanıqlı inkişaf üzrə BMT-nin müvafiq qərarları ilə bağlı sualların da nəzərə alındığını diqqətə çatdırdı.

**Prezident İLHAM ƏLİYEV:**

- Çox yaxşı. Bu, hər bir ölkə üçün çox önəmli tədbirdir. Azərbaycanda da siyahıyaalınma tədbirləri müntəzəm olaraq keçirilir. Son dəfə 10 il bundan əvvəl keçirilmişdir. Əlbəttə, bu 10 il ərzində ölkəmizdə çoxlu dəyişikliklər baş vermişdir. İlk növbədə, demoqrafik vəziyyət daha da yaxşılaşdı. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini təntənə ilə qeyd etmişik. İşsizliklə bağlı görülmüş tədbirlər öz səmərəsini verir, vətəndaşların sosial rifahı yaxşılaşır. Təkcə bu il minimum əməkhaqqı təxminən iki dəfə artırıldı. Həmçinin pensiyalar, tələbələrin təqaüdləri, müavinətlər artırıldı. Yəni, sosial-iqtisadi inkişaf demoqrafik inkişafla uzlaşır və bu da təbiidir.

Əlbəttə, müstəqillik dövründə Azərbaycanın əhalisi təxminən 3 milyon artmışdır. Bu da bizim mövqelərimizi möhkəmləndirir, ölkəmizi gücləndirir. Eyni zamanda, qarşımıza yeni çağırışlar çıxır. Siyahıyaalınma bizə daha dəqiq və müfəssəl məlumat verəcək. Baxmayaraq ki, biz ölkəmizdəki prosesləri yaxından izləyirik və bu proseslər müsbət istiqamətdə gedir. Siyahıyaalma 10 gün ərzində keçiriləcək və bu gün artıq bu proses başlayır. Əminəm ki, 10 gün ərzində Azərbaycan əhalisinin tam şəkildə siyahıyaalınma prosesi başa çatacaq və bizə iqtisadi inkişafla, infrastrukturla, miqrasiya və əmək resurslarının artımı ilə bağlı yeni məlumat verəcək ki, gələcək inkişafımızı necə planlaşdıraq. Bizdə əmək resursları artır. Əlbəttə ki, tədbirlər gərək bu artıma uyğun olsun.

Dövlət Statistika Komitəsinin əməkdaşı **Zəbihə ƏSGƏR** dedi:

- Cənab Prezident, BMT-nin tövsiyələrinə əsasən siyahıyaalmanın iki əsas sənədi var ki, bunlardan biri siyahıyaalma vərəqi, digəri isə sorğu vərəqidir. Siyahıyaalma vərəqinin doldurulmasının məqsədi ev təsərrüfatları haqqında məlumat əldə etməkdir.

Sonra Prezident İlham Əliyev siyahıyaalma və sorğu vərəqələrində nəzərdə tutulan sualları cavablandırdı.

## Azərbaycan Milli Elmlər Akademiyasının Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda neft-kimya elminin inkişafındakı xüsusi xidmətlərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar elm xadimi"**
Əlimərdanov Hafiz Mütəllim oğlu
Həsənov Arif Həsən oğlu
İbrahimov Hikmət Camal oğlu

**"Əməkdar mühəndis"**
Abdullayev Elmar Şahmar oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2019-cu il*

## Azərbaycan Milli Elmlər Akademiyasının Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda neft-kimya elminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Əliyeva Leylufər İmran qızı
Hacıyev Arif Şahmalı oğlu
Məmmədbəyli Eldar Hüseynqulu oğlu
Səidova Adilə Atakişi qızı
Süleymanov Samir Süleyman oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2019-cu il*

## Birinci vitse-prezident Mehriban Əliyeva məşhur müğənni və bəstəkar Sami Yusufa Azərbaycan Prezidentinin fəxri diplomunu təqdim edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 1-də Azərbaycan əsilli dünyaca məşhur müğənni və bəstəkar Sami Yusufla görüşüb.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva müğənniyə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu təqdim etdi.

Birinci vitse-prezident Mehriban Əliyeva Sami Yusufun II Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalındakı iştirakını yüksək dəyərləndirdi. Mehriban Əliyeva müğənninin bu ilin iyununda Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində keçirilən konsertdəki çıxışını da xatırladı, bu konsertin ən yüksək səviyyədə təşkil edildiyini və Azərbaycan ilə UNESKO arasındakı əlaqələrə töhfə olduğunu vurğuladı. Birinci vitse-prezident bildirdi ki, Azərbaycan Prezidentinin sərəncamına əsasən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda təşkili və keçirilməsində fəal iştirak etmiş şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif ediliblər. Bu şəxslərin sırasında Sami Yusuf da var.

Birinci vitse-prezident fəxri diplomu müğənniyə təqdim etdi.

Görüşdə Mehriban Əliyeva Sami Yusufa gələcək yaradıcılığında uğurlar arzuladı.

Müğənni və bəstəkar Sami Yusuf yüksək mükafata görə minnətdarlığını bildirdi.

## Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması, habelə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq məfkurəsini gənc nəslin daha dərindən mənimsəməsi işinə töhfə verilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ölkənin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər Fonduna 4.0 (dörd) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2019-cu il*

## Azərbaycan Milli Elmlər Akademiyasının Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda neft-kimya elminin inkişafındakı uzunmüddətli səmərəli fəaliyyətlərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun aşağıdakı əməkdaşları "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Abbasov Vaqif Məhərrəm oğlu
Məmmədyarov Məhərrəm Əli oğlu
Rüstəmov Musa İsmayıl oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2019-cu il*

# İkinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı Heydər Əliyev Mərkəzində qala-tamaşa ilə başa çatıb

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib





Oktyabrın 1-də Heydər Əliyev Mərkəzində II Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalının bağlanış qala-tamaşası olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.

Qala-tamaşada Azərbaycan incəsənət xadimlərinin, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin, Milli Konservatoriyanın nəzdində yaradılan qədim musiqi alətlərindən ibarət "Əsrlərin sədası" ansamblının, o cümlədən Türkiyə, İran, İordaniya və Mərakeşdən dəvət olunan musiqiçilərin, ABŞ-dan caz ifaçısı, pianoçu Dan Tepferin, xanəndə Elsevər Muradovun ifaları dinlənilib.

Eyni zamanda, bəstəkar Rəhilə Həsənovanın simfonik orkestr üçün "Ulduzlara lay-lay" əsəri, Ayaz Qəmbərlinin Nəsimi festivalı üçün bəstələdiyi "Mozaika" əsəri təqdim olunub.

Nəfis bədii və video tərtibatla zəngin olan qala-tamaşa müxtəlif mədəniyyətlərin və zamanların görüşünü canlandıraraq rəmzi olaraq şeir, incəsənət və mənəviyyat dünyasını təqdim edib.

Tamaşada, həmçinin dahi şair İmadəddin Nəsiminin müxtəlif yaşlardakı obrazı aktyorların təqdimatında canlandırılıb.






Proqram ərzində İmadəddin Nəsiminin şeir dünyasının ümumbəşəriliyi, şairin müasir dövrlə səsləşən ruhu nümayiş olunub.

Qeyd edək ki, II Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı sentyabrın 28-dən başlayıb. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan festival dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığının tədqiqi və təbliği, onun fikir və düşüncələrinin müasirlikdə əksini izləmək məqsədi daşıyır. Dörd gün ərzində Nəsimi yaradıcılığına müxtəlif istiqamətlərdən diqqət yetirilib, yeni maraqlı layihələr vasitəsilə dahi şairin yaradıcılığına və fəlsəfəsinə baxış olub.

Budəfəki festival həm də şairin 650 illik yubileyinə təsadüf edib. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə əlaqədar 2019-cu il "Nəsimi ili" elan olunub.

Festival günlərində Bakıda və şairin doğulduğu Şamaxı şəhərində təşkil olunan tədbirlərdə Nəsimi poeziyası, böyük mütəfəkkirin fəlsəfi ideyaları müxtəlif incəsənət növləri və onların ahəngi vasitəsilə tərənnüm edilib.

**Dəyərli oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, 1993-cü ildən başlayaraq indiyə qədər ölkədə Azərbaycan Respublikasının dövlət ideologiyası - azərbaycançılıq məfkurəsi ilə bağlı çoxsaylı kitab və məqalələr yazılıb, dəyirmi masalar və konfranslar keçirilib, bu sahədəki mövcud vəziyyət və gələcək işlər haqqında mətbuat səhifələrində geniş müzakirələr aparılıb. Görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin azərbaycançılıq ideologiyası, onun ölkəmizdə tətbiqi ilə bağlı çoxsaylı çıxışları və tövsiyələri olub. Həmin çıxış və tövsiyələr dövlət qurumları və müvafiq siyasi-ideoloji strukturlar tərəfindən mütəmadi olaraq öyrənilir, irəli sürülən müddəa və prinsiplər nəzərə alınır, ictimai həyatımızın bütün sahələrində tətbiq edilir. Lakin nədənsə bütün digər fəaliyyət sahələrində olduğu kimi, ideoloji sahədə də özlərini hələ də real olaraq tapa bilməyən, öz ətraflarında ciddi bir siyasi-ideoloji boşluq hiss edən bəzi "siyasətçilər" yenə Azərbaycan hakimiyyətini milli ideologiya yaratmamaqda günahlandırır və bu sahə ilə bağlı yalan informasiya yayaraq cəmiyyəti çaşdırmağa çalışırlar. Odur ki, yenidən milli ideologiya və onun Azərbaycanda tətbiqi mövzusuna qayıtmaq istəyirəm. Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun "Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının banisidir" sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.**



**"Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"**

**Heydər ƏLİYEV**

# Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının banisidir

Məlum olduğu kimi, müasir dünyada irili-xırdalı, təxminən 5000-dən artıq xalq mövcud olsa da, BMT iqamətgahında bayrağı dalğalanan müstəqil dövlətlərin sayı bu gün 200-dən bir qədər çoxdur. Azərbaycan dövlətinin bu sırada öz yerini tutması xalqımızın böyük tarixi nailiyyəti kimi qiymətləndirilir.

Hər bir xalqın müstəqil dövlət quruculuğu yolu bir sıra mühüm daxili və xarici amillərlə şərtlənir. Azərbaycan xalqı əlverişli tarixi şəraitdən və özünün siyasi, iqtisadi, mədəni və intellektual potensialından istifadə edərək XX əsrin sonunda çoxdankı istiqlal arzusunu yenidən gerçəkləşdirdi. Lakin müstəqillik dövrünün qısa tarixi Ümummilli Lider Heydər Əliyevin belə bir fikrini təsdiq edir ki, "müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir". Bu illər ərzində Azərbaycanın keçdiyi yolun təhlili göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyaya o dövrdə möhkəm iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın böyük dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs başçılıq edə bilərdi və belə də oldu. XX əsrin 90-cı illərinin sonunda Azərbaycanda Ümummilli Lider mövqeyinə yüksələ bilən və bu missiyanın öhdəsindən gəlmək iqtidarında olan yeganə şəxsiyyət məhz Heydər Əliyev idi.

Heydər Əliyevin əməli və nəzəri fəaliyyətinin mühüm bir hissəsini onun milli dövlətçilik təlimi, milli-mənəvi və ideya-siyasi dünyagörüşü təşkil edir. Onun bu sahə üzrə toplanmış zəngin irsi təkcə bugünkü ictimai-siyasi dairələr üçün deyil, həm də gələcək nəsillər, Azərbaycana rəhbərlik etmək istəyən bütün liderlər üçün örnək olmağa layiqdir. Müasir Azərbaycanın möhkəm özülünü qoymuş bu tarixi şəxsiyyətin ideya dünyası onun davamçılarının yoluna həmişə işıq salacaq.

Heydər Əliyevin ideya və fikirləri, həyata keçirdiyi siyasət Azərbaycan şəraitində sosialist ictimai-iqtisadi sistemindən yeni cəmiyyətə keçidin elmi-nəzəri və konseptual əsaslarını yaratmışdır. İmperiya və sosialist sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, qloballaşan dünyada öz yerini axtaran, milli mənafelərini qorumağa çalışan gənc Azərbaycan üçün Heydər Əliyevin dövlətçilik təlimi əsl fəaliyyət strategiyası və proqramı idi. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində Heydər Əliyevin əməli fəaliyyəti və ideya-siyasi baxışlarının çox böyük rolu olub.

Heydər Əliyev 1993-cü ildə yenidən Azərbaycanın rəhbərliyinə qayıdarkən bitkin dövlət konsepsiyasına malik idi. Bu konsepsiyanın bəzi tezisləri onun 1992-ci ildə Azərbaycan ziyalılarına ünvanlanmış müraciətində və elə həmin il qəbul edilmiş Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapıb. Bu müraciət - proqramda dövrün real ictimai-siyasi vəziyyəti, müstəqil dövlət quruculuğunun şərtləri, regionumuzda və beynəlxalq aləmdə cərəyan edən hadisələrin və yaşanan proseslərin xarakteri, Azərbaycanın daxili durumu, hökm sürən iqtisadi, siyasi böhran, ondan çıxış yolları və digər taleyüklü məsələlər tezislər şəklində özünün əsl siyasi qiymətini alıb.

Ulu Öndər Heydər Əliyev hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişafı ölkə həyatının ən vacib vəzifəsi hesab edirdi. O öyrədirdi ki, dövlət qurarkən cəmiyyətin yaşam tərzini, ictimai həyat normalarını, idarəçiliyi, qanunçuluğu, sabitliyi, vətəndaş birliyini, milli həmrəyliyi, beynəlxalq təhlükəsizliyi və s. vəzifələri o zaman dolğun və davamlı təmin etmək olar ki, dövlətin iqtisadiyyatı güclü olsun və qarşıya qoyulmuş məqsədlərə cavab versin.

Heydər Əliyev dövlət quruculuğunun bütün sahələrində insan amilinə, milli və dövlətçilik təfəkkürü güclü olan kadrlara ciddi önəm verirdi, hər bir Azərbaycan vətəndaşını milli əxlaqa və güclü iradəyə malik, qlobal və azad düşüncəli, təşəbbüskar, fəal, ölkədaxili və beynəlxalq proseslərdən baş çıxara bilən, təhsilli, ədalətli, vətəni və xalqı üçün gərəkli insan kimi görmək istəyirdi.

Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan Respublikasına on illik rəhbərliyi dövründə nəinki müstəqil Azərbaycan dövlətini qurdu və gələcək inkişafının hərtərəfli sağlam təməlini qoydu, eyni zamanda, ölkə vətəndaşlarını səfərbər edən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında birləşdirən milli təlim - azərbaycançılıq ideologiyasını yaratdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdanda Azərbaycanda keçmiş kommunist ideologiyasından imtina edilmişdi. Lakin xalqı müstəqil dövlətçilik ətrafında birləşdirə bilən, azərbaycanlıların kimliyini, yaratdığı dövlətin xarakterini izah edən, milli-mənəvi dəyərlərini qoruyub saxlayan və inkişaf etdirən, ölkə vətəndaşlarını öz ətrafında səfərbər edərək gələcəyə aparan nə vahid ideya-siyasi təlim, nə də funksional idarəçilik sistemi yaradılmışdı. Keçmişin bütün zəngin irsindən, o cümlədən elmi, intellektual, mənəvi, ictimai dəyərlərindən total şəkildə imtina meyli Azərbaycanda, sözün həqiqi mənasında, ciddi ideoloji boşluq yaratmışdı. Cəmiyyətin ideyasızlaşdırılması cəhdi bir tərəfdən keçmiş kommunist rejiminə nifrətdən qaynaqlanırdısa, digər tərəfdən 1991-1993-cü illərdə Azərbaycanı idarə edən rəsmilərin aydın məqsəd və məramının yoxluğundan, rəhbərlik etdikləri dövlətin siyasi, iqtisadi, mədəni, mənəvi inkişaf haqqında bitkin təsəvvürə malik olmamalarından irəli gəlirdi.

Heydər Əliyevin dövründə Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət siyasətinin prioritetinə çevrildi. Bir faktı xüsusi vurğulamalıyıq ki, başqa sahələrdə olduğu kimi, milli-ideoloji baxışlar sisteminin formalaşmasında da Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipini qorudu və vaxtilə onun qurucularının birləşdirici ideya kimi irəli sürdüyü azərbaycançılıq ideologiyasına müraciət etdi. Həm də nəinki sadəcə müraciət etdi, onu real və dolğun məzmunla zənginləşdirərək dövlət siyasəti səviyyəsinə qaldırdı.

Ümummilli Lider qeyd edirdi ki, milli ideologiya tarixi keçmişimizlə, millətimizin adət-ənənələri, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır. Məlum olduğu kimi, azərbaycançılıq ideyasının tarixi son iki əsri əhatə edir. XIX əsrin milli maarifçilik hərəkatı nümayəndələrinə qədər azərbaycançılıq ifadəsi əsasən vətənçilik, vətənsevərlik mənasında işlədilirdi və onun milli səfərbəredici və gündəlik praktiki təsiri çox aşağı idi. Lakin XIX əsrin maarifçilik hərəkatı nümayəndələri, xüsusən M.F.Axundzadə, A.A.Bakıxanov, H.B.Zərdabi, N.B.Vəzirov, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, N.Nərimanov və başqaları azərbaycançılığı xalqımıza qarşı həyata keçirilən işğalçılığa, milli məhrumiyyətlərə müqavimət reaksiyası, tarixi yaddaşın qorunması, ana dilinin, milli adət-ənənələrin, mənəviyyatın yaşadılması, inkişafı, milli şüurun oyanışı və s. vasitəsi kimi təbliğ edirdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ilk dəfə azərbaycançılıq ideyasını yeni - daha sistemli məzmunda dövlət siyasəti səviyyəsinə qaldırmağa cəhd göstərərək, Cümhuriyyətin fəaliyyətini bu ideya istiqamətində qurmağa çalışmışlar. Lakin Xalq Cümhuriyyətinin tezliklə süqut etməsi azərbaycançılıq ideyasını da gündəmdən çıxararaq kommunist ideologiyasının kölgəsinə saldı.

Sovet dövründə azərbaycançılıq ideyası əsasən xalqın yaddaşında, o cümlədən milli adət-ənənələrdə, müəyyən qədər də bədii əsərlərdə yaşamış və təbii ki, dövlət ideologiyasına çevrilə bilməmişdir. Lakin bir faktı xüsusi vurğulamalıyıq ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə - 1970-80-ci illərdə azərbaycançılığın inkişafına əlverişli ictimai-siyasi, elmi və mədəni-mənəvi şərait yaradılmışdı. Bu şəraitdən o dövrdə tarixçilər, ədəbiyyatçılar, dilçilər, filosoflar və başqa intellektual fəaliyyət nümayəndələri müəyyən qədər bəhrələnərək bir çox əsərlər yaratmışlar. Həmin əsərlərdə azərbaycançılığın mühüm sahələri olan ümumazərbaycançılıq hisslərinin, Azərbaycan dilinin, milli şüurun, mədəniyyətin, mənəvi dəyərlərin, zamanın sınaqlarından çıxmış ənənələrin inkişafı və dünyada təbliği, gənc nəslin milli ruhda tərbiyə edilməsi və s. məsələlər təlqin olunmuşdur.

Azərbaycançılıq ideyasının formalaşmasında ötən əsrin 90-cı illərində - dövlət müstəqilliyinin bərpası ərəfəsində başlanmış əvvəlcə xalq, sonra isə milli azadlıq hərəkatının əhəmiyyətli rolu olmuşdur. Bu dövrdə azərbaycançılıqla bağlı müxtəlif əsərlərin yenidən çap olunması və yayılması, yeni kitab və məqalələrin yazılması, milli şüurun, ruhun yüksəlişinə xidmət edən xalq hərəkatının vüsət alması insanların kütləvi düşüncə tərzinə öz müsbət təsirini göstərdi. Lakin təəssüf hissi ilə qeyd edilməlidir ki, o illərdə Azərbaycanı yönəldən qüvvələr, xüsusən AXC-Müsavat dairələri respublikanın milli-etnik xüsusiyyətlərini nəzərə almadan, meydan əhvali-ruhiyyəsi altında azərbaycançılığın təbliğində kobud səhvlərə yol verdilər. Onlar azərbaycançılığı milli müstəsnalıq kimi təqdim edərək onu ümumtürklük ideyası ilə eyniləşdirdilər və bununla da respublikada ölkədaxili etnik və milli etimadsızlıq mühiti yaratdılar. Bu da, müvafiq olaraq, həmin dövrdə azərbaycançılıq ideyasının həyatiliyinə, ümumi cəlbediciliyinə ciddi zərbə vurdu.

1993-cü ildən Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı ilə bütün Azərbaycan vətəndaşlarının, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı. Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil dövlətin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi və elmi-mədəni dairələrin gündəliyinə çıxarıldı. Bunun ardınca Azərbaycan dilinin rəsmi dövlət dili statusu alması və latın qrafikasının tətbiqi, milli-mənəvi dəyərlərin qorunması, inkişafı və azərbaycançılıq ideyaları ilə birgə bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılması, 31 dekabrın hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi və bu münasibətlə xarici ölkələrdə yaşayan soydaşlarımızın iştirakı ilə təşkil olunan toplantılar, xarici səfərlər zamanı Heydər Əliyevin həmvətənlərimizlə keçirdiyi görüşlər və s. 1993-cü ildən başlayaraq azərbaycançılıq ideologiyasının dövlət siyasəti səviyyəsinə qaldırılmasının bariz nümunələri idi.

Müstəqilliyinin ilk illərində, xüsusən 1991-1994-cü illərin təhlükəli milli-vətəndaş qarşıdurması və ictimai-siyasi böhranı dövründə Heydər Əliyev azərbaycançılıq ideyasını daha çox ölkədaxili ictimai-siyasi qüvvələrin, sosial, milli və dini qrupların birləşdirici amili kimi təlqin edir və bu istiqamətdə onu inkişaf etdirməyə çalışırdı. O, mövcud təhlükəli vəziyyəti dəyərləndirərək qeyd edirdi ki, hakimiyyətə, iqtidarlara və onların fəaliyyətinə müxalifətdə durmaq olar. Lakin dövlətə, dövlətçiliyə, milli birliyə, vətənin, xalqın ümumi marağını ehtiva edən azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə, milli məsləkə, milli dilə, milli varlığa heç zaman müxalifətdə durmaq olmaz.

Göründüyü kimi, Heydər Əliyevin dövlətçilik təlimi - azərbaycançılıq ideologiyası ilk növbədə bütün ölkə vətəndaşlarından Azərbaycanın dövlətçilik maraqlarına, xalqımızın milli-mənəvi dəyərlərinə, dövlət dilinə həqiqi sevgi və qayğı tələb edirdi. Sonrakı illərdə, xüsusən də 1995-ci ildə Azərbaycanın yeni Konstitusiyasının hazırlanması və qəbulu ərəfəsində Heydər Əliyev azərbaycançılıqla bağlı əvvəlki illərdə səsləndirdiyi fikirlərini bir qədər də inkişaf etdirərək, bu birləşdirici ideyaya tamamilə yeni bir hüquqi-siyasi və ideoloji məzmun verdi, onu tamamilə ölkənin milli-etnik xüsusiyyətlərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı. Odur ki, bu gün çəkinmədən və inamla söyləmək olar ki, Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisidir. Çünki azərbaycançılıq ideologiyası məhz Ulu Öndərin dövründə həqiqi siyasi-ideoloji məzmun alaraq mükəmməl bir təlimə çevrildi və müstəqil dövlət ideologiyası səviyyəsinə qaldırıldı. Azərbaycançılıq ideologiyası sonrakı illərdə mükəmməl bir konsepsiya kimi tədricən bütün Azərbaycan vətəndaşlarının, dünyada yaşayan əksər həmvətənlərimizin, Azərbaycanla bağlılığı olan hər bir soydaşımızın milli birlik platforması rolunu oynamağa başladı. Əgər Heydər Əliyevə qədər azərbaycançılıq ideyası əsasən etnolinqvistik, ədəbi-bədii, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi mövcud idisə, onun dövründə ciddi hüquqi-siyasi məzmun alaraq bitkin ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi.

2001-ci ildə Bakıda tarixdə ilk dəfə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi və minlərlə soydaşımızın iştirakı ilə azərbaycançılığın əsaslarının bir daha geniş müzakirə edilməsi, mövcud vəziyyətin qiymətləndirilməsi və gələcək vəzifələrin müəyyən olunması milli ideologiyamızın formalaşması və daha da inkişafında yeni bir mərhələ kimi dəyərləndirilə bilər.

Heydər Əliyevin yaratdığı azərbaycançılıq ideologiyası və onun məzmununa daxil edilmiş əsas prinsiplər 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Ümummilli Lider dövlətçilik maraqlarının qorunması deyəndə, ilk növbədə hamılıqla qəbul etdiyimiz ölkənin Ali Qanununun - Konstitusiyanın müddəalarına əməl olunmasını nəzərdə tuturdu. Bu normalar ilk növbədə hər bir Azərbaycan vətəndaşının ümummilli vəzifəsi kimi ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasında iştirakını, vətəndaş cəmiyyətinin bərqərar olunmasını, xalqın iradəsinə, qanunların aliliyinə əsaslanan hüquqi, dünyəvi dövlət qurulmasını, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsinin təmin edilməsini, ümumbəşəri dəyərlərə sadiqliyi, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və s. ehtiva edir.

Göründüyü kimi, Ümummilli Liderin azərbaycançılıq ideologiyasının təməlində ilk növbədə güclü Azərbaycan dövlətçiliyi prinsipi, ümumazərbaycançılıq qayəsi (vətəndaş birliyi və tolerantlıq ideyası), ədalətli və hamı üçün məqbul olan ictimai həyat normaları, ölkənin hər bir vətəndaşının Azərbaycan dövlətini özünün güvənc yeri sayması, bu vətəni özünün qürur mənbəyi hesab etməsi, başqa etnik-dini mənsubiyyəti olan vətəndaşlarla bəşəri birgəyaşayış qaydaları əsasında ünsiyyət qurması və s. ali dəyərlər dayanır.

Heydər Əliyevin azərbaycançılıq ideologiyasında mərkəzi yerdə dayanan güclü Azərbaycan dövləti anlayışı xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə söykənərək onları daim yaşadacaq və zənginləşdirəcək bir idarəçilik institutudur. Bu dövlətin təkmil mərkəzi və yerli idarəetmə mexanizmləri, sabit ictimai-siyasi həyatı, işlək qanunları olmalı, hər bir vətəndaşının imkan və bacarıqları lazımi səviyyədə dəyərləndirilməli və qabiliyyətinə görə proseslərə cəlb edilməli, ölkədə şəffaf, tolerant və multikultural mühit hökm sürməli, ümumvətəndaş birliyi dövlətçiliyin təməlində dayanmalıdır.

Beləliklə, yuxarıda aparılmış təhlildən də göründüyü kimi, azərbaycançılıq ideologiyası artıq hansısa bir siyasi liderin, partiyanın, yaxud siyasi təşkilatın deyil, bütün Azərbaycan xalqının ümumi maraqlarının ifadəsinə çevrilib. Belə olan halda bu ideologiyaya müxalifətdə durmaq ümumxalq maraqlarına, ümumxalq fikrinə və mövqeyinə müxalifətdə durmaq kimi dəyərləndirilməlidir. Azərbaycançılıq ideologiyası bu anlamda xalqın istəyi, arzusu və iradəsi ilə qurulmuş dövlətin, bu dövlətin müəyyən olunmuş daxili və xarici siyasət strategiyasının, daimi yaşam və fəaliyyətinin əsasını, başlıca prinsiplərini təşkil edir. Deməli, onun həyata keçirilməsi və qorunması Azərbaycanda yaşayan, fəaliyyət göstərən, bu dövlətin idarəçiliyinə iddia edən hər bir vətəndaş və təşkilat üçün əsas olmalıdır. Əgər hər hansı şəxs və yaxud təşkilat yaşadığı cəmiyyəti, təmsil etdiyi dövləti, Konstitusiya ilə müəyyənləşdirilmiş ölkədaxili münasibətlər və dəyərlər sistemini qəbul edirsə, deməli, dövlətin də bu sistemin təminatçısı olmasını mütləq qəbul etməlidir.

Heydər Əliyev azərbaycançılıq ideologiyasını müəyyənləşdirərkən həm də beynəlxalq aləmdə cərəyan edən hadisələri, müasir dünya siyasətini, qloballaşan və transmillləşən dünyanın inkişaf meyllərini nəzərə alırdı. Əlbəttə, qloballaşan dünyada ölkələrin milli maraqlarını, milli-mənəvi və əxlaqi dəyərlərini qorumaq o qədər də asan olmur. Transmilli şirkətlər və onların arxasında duran fövqəldövlətlər ölkələrin milli inkişafı, milli mənafeləri, milli-mənəvi dəyərlərin qorunması və sair prosesləri çox qısqanclıqla qarşılayırlar. Heydər Əliyev bu reallığı nəzərə alaraq, bir tərəfdən azərbaycançılıq ideologiyasını ümumbəşəri dəyərlər fonunda formalaşdırır, digər tərəfdən dövlət quruculuğu proseslərində xarici təsirləri milli ideologiya süzgəcindən keçirirdi.



Heydər Əliyev azərbaycançılıq ideologiyasını formalaşdırarkən milli-mənəvi dəyərləri, tarixi keçmişimizdən bizə miras qalmış milli varlığımızı və onu fərqləndirən bütün atributları qorumaqla yanaşı, Azərbaycanı, eyni zamanda müasir, inkişaf etmiş, xalqın maddi-mənəvi tələbatını təmin edə bilən, daxili həyatı sabit, multikultural dəyərlərə, milli və sosial birliyə qovuşmuş bir dövlət kimi görürdü.

Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsasına ilk növbədə dünyada yaşayan 40 milyondan çox azərbaycanlının maraqlarını təmin edə biləcək, bütün ölkə vətəndaşlarının sabit, firavan və dinamik inkişafına cavab verən milli dövləti - müstəqil Azərbaycan dövlətini qoyurdu.

Ulu Öndər Heydər Əliyev çıxışlarında bu məsələyə belə şərh verirdi: "Müstəqil Azərbaycan dövləti bizim üçün ən qiymətli tarixi nailiyyətdir və onun qorunması, əbədiyaşar edilməsi hər bir azərbaycanlının müqəddəs borcudur. Milli ideologiyadan danışarkən biz ilk növbədə bütün xalqımızı, xüsusən gəncləri Azərbaycanın müstəqil dövlətçiliyi prinsiplərinə sadiq olmaq ruhunda tərbiyə etməliyik".

Heydər Əliyev Azərbaycan dövlətini azad, ədalətli, demokratik, siyasi plüralizmin, tolerant mühitin, multikultural dəyərlərin hökm sürdüyü, vətəndaş cəmiyyətinə malik bir ölkə kimi görmək istəyirdi və daim buna çalışırdı. 1995-ci ildə çoxpartiyalı sistem əsasında ilk parlament seçkilərinin keçirilməsi, ölkənin ilk Konstitusiyasının qəbul edilməsi, Avropanın demokratik institutları ilə Azərbaycanın əlaqələrinin gücləndirilməsi Ümummilli Liderin öz ölkəsinin gələcəyi ilə bağlı mövqeyinin göstəricisi idi. Azərbaycanda əsl çoxpartiyalı sistemin, azad, plüralist cəmiyyətin, qeyri-hökumət təşkilatlarının, müstəqil mətbuatın yaradılması və inkişafı da Heydər Əliyevin bilavasitə səyi ilə həyata keçirilib.

Heydər Əliyevin dövlət təlimi və milli ideyasında ikinci əsas yeri insan amili - millətini və xalqını sevən, dövlətinin yolunda hər bir şücaətə hazır olan, milli-mənəvi dəyərlərini yaşadan, dövlət dilini bilən və sevən, ədalətli və təşəbbüskar, fəal mövqeli və iradəli Azərbaycan vətəndaşı tuturdu. Ulu Öndər öyrədirdi ki, hər hansı dövlətin gücü heç də onun böyüklüyü, yaxud kiçikliyi ilə ölçülmür. Əgər ölkənin vətəndaşı gördüyü işin onun özünə, ailəsinə və xalqına gətirəcəyi xeyri əvvəlcədən anlayır və ədalət prinsipi ilə öz zəhmətinin nəticəsini alırsa, həmin ölkə vətəndaşları daha ideyalı, əzmli və iradəli, belə ölkələr isə bir qayda olaraq güclü, qüdrətli və əzəmətli olurlar.

Ümummilli Liderin dövlət təliminə görə, dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşları qanun və ədalət qarşısında bərabərdir. Təsadüfi deyil ki, 1993-cü ildə Heydər Əliyevin idarəçilik fəaliyyətinin mühüm bir sahəsini Azərbaycanda harmonik cəmiyyətin yaradılması, insan potensialının quruculuq işlərinə cəlb edilməsi, sosial ədalət prinsiplərinin bərqərar olması və insanların öz dövlətinə inamının artırılmasına xidmət təşkil etmişdir. Heydər Əliyevin milli həmrəylik və vətəndaş birliyi ideyası, insan resurslarından səmərəli istifadə, hər bir vətəndaşın öz dövlətinə bağlılığı, dövlətin hər bir insana, hər bir insanın isə dövlətçiliyinə xidmət etməsi amalı 1995-ci ildə qəbul olunmuş Konstitusiyada da əksini tapmışdır.

Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri də Heydər Əliyev üçün milli-mənəvi dəyərlərin, ana dilinin və mədəniyyətin qorunub saxlanması və inkişaf etdirilməsi idi. Ulu Öndər bununla bağlı qeyd edirdi ki, milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirməli, bu dəyərlərin qorunub saxlanılmasına və inkişafına xidmət etməlidir.

"Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Bu ifadələr Ümummilli Liderimizin milli-mənəvi dünyasını, vətəndaş mövqeyini və varlığını göstərən, öz milli köklərinə bağlılığını sübut edən tarixi bir bəyanat idi.

Heydər Əliyev azərbaycançılıq ideologiyasından danışarkən layiqli vətəndaş, xüsusən hərtərəfli inkişaf etmiş gənc nəslin yetişdirilməsi məsələsini xüsusi fərqləndirirdi. O, Azərbaycan gənclərini sərbəst düşüncə tərzinə malik, cəmiyyətdə və dünyada gedən proseslərdən baş çıxara bilən, vətənpərvər, dövlətçilik təfəkkürü güclü olan savadlı, bacarıqlı, intellektli insanlar kimi görürdü. Ümummilli Lider qeyd edirdi: "Biz elə bir nəsil yetişdirməliyik ki, o öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada layiqincə təmsil etməyi bacarsın. Gənc nəsil öz milli adət-ənənələrinə sadiq olmalı, ana dilini, milli mədəniyyətimizi dərindən öyrənməli, eyni zamanda, bəşəri dəyərləri mənimsəməlidir".

Ölkəmizin tarixinin mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Heydər Əliyevin dövlətçilik təlimi və onun ayrılmaz tərkib hissəsi olan azərbaycançılıq ideologiyası müstəqil Azərbaycanın bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir.

Ulu Öndərin siyasi xəttini ardıcıl olaraq davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev onun müstəqil dövlət quruculuğu yolundakı nəzəri və praktiki irsinə qiymət verərək demişdir: "1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Çünki məhz o illərdə dövlətçiliyin əsasları qoyuldu, Azərbaycan dövləti quruldu, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları - azərbaycançılıq məfkurəsi formalaşdırıldı... Heydər Əliyev tərəfindən yaradılan bu əsaslar hazırda Azərbaycan xalqına yol göstərir".

Ötən 16 ildə Prezident İlham Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, ana dilinin inkişafı və saflığının qorunmasını, gənclərin vətənpərvərlik tərbiyəsini, xalqımızın tarixi irsinin yaşadılmasını, ölkə daxilində tolerantlıq mühitinin və multikultural dəyərlərin möhkəmləndirilməsini və s. məsələləri dövlət siyasətinin tərkib hissəsinə çevirməsi onun Heydər Əliyevin dövlətçilik təliminə verdiyi ciddi əhəmiyyətin və bu təlimi yaradıcı şəkildə inkişaf etdirməsinin əyani təzahürüdür. Prezident İlham Əliyevin rasional, uzaqgörən və praqmatik siyasəti, cəsarətli addımları, güclü liderlik keyfiyyətləri və yorulmaz gündəlik əməyi sayəsində Azərbaycan dövləti Ulu Öndərin müəyyənləşdirdiyi strateji vəzifələrin öhdəsindən uğurla gəlir və gələcəyə doğru inamla irəliləyir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası hazırda öz tarixinin ən yüksək inkişaf dövrünü yaşayır. Geridə qoyduğumuz 16 il ərzində ölkədə ictimai-siyasi sabitlik qorunub saxlanılıb, demokratik institutlar möhkəmləndirilib, iqtisadiyyat gücləndirilib, əhalinin maaşları, pensiya və müavinətləri dəfələrlə artırılıb. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, inkişaf etməkdə olan ölkələr arasında isə 3-cü yerə yüksəlib. Prezident İlham Əliyev müasir mürəkkəb geosiyasi vəziyyətdə düşünülmüş və ardıcıl siyasət yürüdür, dövləti beynəlxalq səviyyədə layiqincə təmsil edir.

Dövlət başçısı İlham Əliyev qazanılmış nailiyyətlərin səbəblərinə qiymət verərkən həmişə iki amili xüsusi qeyd edir: xalqın etimadı və Heydər Əliyev ideyalarına, onun siyasi kursuna sədaqət. 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində İlham Əliyevin parlaq qələbəsi Azərbaycan xalqının yüksək etimadının və öz liderinə olan inamının əyani təzahürü idi. Bu qələbənin zəruri şərti isə Ulu Öndərin ideyalarına sədaqət, onun müəyyənləşdirdiyi yolun bacarıqla davam etdirilməsidir.

*Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışından - oktyabr ayının 3-də ilk dəfə Prezident seçilməsindən 26 il ötür. Onun Azərbaycanın tərəqqisinə xidmət edən səmərəli dövlətçilik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gündən-günə modernləşən Azərbaycan Respublikası bu il 96 illiyini böyük ehtiramla qeyd etdiyimiz Ulu Öndərin işıqlı xatirəsinə ən böyük töhfədir. Milli dövlətimiz durduqca Heydər Əliyev Azərbaycan xalqının qəlbində yaşayacaq, onun nurlu ideyaları daim yolumuza işıq salacaqdır.*

**Əli HƏSƏNOV,**
***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor***




# "Pəncərədən düşən işıq" sənədli filminin nümayişi tamaşaçılarda dərin təəssürat yaradıb

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib



Oktyabrın 1-də Bakı Marionet Teatrında Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində "TEFİ Sodrujestvo"nun mükafatına layiq görülmüş "Pəncərədən düşən işıq" sənədli filminin nümayişi olub.

Film Heydər Əliyev Fondunun və Bakı Media Mərkəzinin dəstəyi ilə çəkilib.

AZƏRTAC xəbər verir ki, filmin baş prodüseri və ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva tədbirdə iştirak ediblər.



"Pəncərədən düşən işıq" sənədli filmində Xeyir və Şər arasında əbədi mübarizədən danışılır. Filmin qəhrəmanları bu suala cavab verməyə çalışırlar: Şərlə əbədi mübarizəsində Xeyrin qələbə qazanması üçün nə etmək lazımdır? Onların arasında 20 ildən çox həbsxana həyatı yaşayan və hazırda xeyriyyə təşkilatı yaratmaqla, xeyirxahlığı təşviq edən kitablar yazmaqla, hər gününü yaxşılıq etməklə başlayan şəxsi görürük. Ekran əsərinin digər qəhrəmanı əlil arabasında gəzməsinə baxmayaraq, fəal həyat tərzi keçirir - ali məktəbdə oxuyur, bal rəqsləri ilə məşğul olur, Olimpiya Oyunlarına hazırlaşır, paraşütdən tullanır, bununla da çətinliklərin öhdəsindən gələ bilir.

Filmdə valideynlər və həkimlərlə birlikdə ağır onkoloji xəstəliklərə qarşı mübarizə aparan uşaqlara xüsusi yer verilib. Uşaqları məktəbə getmək, yaşıdları ilə ünsiyyət saxlamaq imkanından məhrum edən müalicənin mürəkkəb olmasına baxmayaraq, onlar tam sağalacaqlarına inam və ümidlərini itirmirlər. "Pəncərədən düşən işıq" filminin hər bir qəhrəmanı insanları xeyirxahlıq etməyə, hər şeyin yaxşılığa doğru dəyişəcəyinə daim inanmağa və heç vaxt ruhdan düşməməyə çağırır.

Sənədli filmin nümayişi tamaşaçılarda dərin təəssürat yaradıb.

Filmin nümayişi başa çatandan sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva jurnalistlərə müsahibəsində ekran əsəri ilə bağlı təəssüratlarını bölüşüb. O bildirib ki, xəstə uşaqlara tez-tez baş çəkir, onlarla ünsiyyət saxlayır. Onu "Pəncərədən düşən işıq" filminin çəkilməsinə də məhz bu ünsiyyət ruhlandırıb. Leyla Əliyeva deyib ki, filmin ideyası ona baxan hər kəsi daha çox xeyirxahlıq etmək barədə düşündürməkdən ibarətdir. Çünki xeyirxahlıq paylaşdıqca artır. O vurğulayıb ki, arzu edən hər kəs "Pəncərədən düşən işıq" filminə "YouTube" kanalında baxa bilər.

Filmin rejissoru və ssenari müəllifi Oleq Şommer qeyd edib ki, söhbət real insanların taleyindən getdiyi üçün çəkiliş prosesi çox mürəkkəb olub. O deyib: "Bu filmdən sonra mənim daxilimdə çox şey dəyişdi. Mən dərk etdim ki, biz bir-birimizə daha çox kömək etməli, özümüzü başqasının yerinə qoymağı bacarmalı, qarşımızdakı insanı incitməməliyik. Həyatın əsas amalı məhəbbət və xeyirxahlıqdır".

Xatırladaq ki, Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə ikinci dəfədir keçirilir.

# Heydər Əliyev Mərkəzində "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının açılışı olub

Oktyabrın 1-də Heydər Əliyev Mərkəzində "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının təntənəli açılış mərasimi olub. "Avrasiya Xalqları Assambleyası" beynəlxalq qeyri-hökumət təşkilatları ittifaqının dəstəyi ilə keçirilən festivalın təşkilatçıları Avrasiya xalqlarının "LiFFt" Mədəni Layihələrinin İnkişafına Dəstək Fondu və Heydər Əliyev Fondudur.

AZƏRTAC xəbər verir ki, genişmiqyaslı maarifçilik layihəsi olan "LiFFt" Avrasiya mədəni məkanının tamhüquqlu tərkib hissəsinə çevrilib. Avrasiya ədəbi festivallarını birləşdirən "LiFFt" 2016-cı ildən etibarən hər il keçirilir.

Builki festival 2019-cu ilin BMT tərəfindən elan edilmiş Yerli Xalqların Dilləri İli Proqramına və böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyinə həsr edilib.

Festivalın məqsədi Avrasiya ölkələrində yazıçıların və oxucuların yaradıcılıq və dostluq əlaqələrini möhkəmlətmək, vahid Avrasiya ədəbi məkanı yaratmaqdır.

Festivalın əsas vəzifələrinə aşağıda sadalanan məsələlər aiddir: Avrasiya ölkələrində festival hərəkatının birləşdirilməsi, Avrasiya xalqlarının mədəniyyətlərinin qarşılıqlı zənginləşməsinə kömək, peşəkar ünsiyyət imkanlarının genişləndirilməsi, ədəbi forumlar və festivallar təşkili sahəsində təcrübə mübadiləsi, ictimaiyyətin geniş dairələrinin, oxucuların qitənin mədəni həyatında iştiraka cəlb edilməsi, mütaliənin və ədəbi yaradıcılığın təbliği, oxucu mədəniyyətinin formalaşması, bütün xalqlar üçün ortaq mənəvi-əxlaqi dəyərlərin bərqərar olması yolu ilə yazıçıların və oxucuların qarşılıqlı zənginləşməsi.

Festivalda Avrasiya ölkələrindən olan yazıçılar, şairlər, dramaturqlar, ədəbiyyat tənqidçiləri, mədəniyyət xadimləri iştirak edirlər.

"LiFFt-2019" Avrasiya festivalı Avrasiya məkanında ədəbiyyatçıların qarşılıqlı yaradıcı fəaliyyəti, yer üzündə həyatın qorunub saxlanması naminə mədəniyyətə və qarşılıqlı hörmətə, sülhsevərliyə, millətlərarası mehriban qonşuluq və həmrəyliyə əsaslanan beynəlxalq ictimai münasibətlərin yeni modelinin yaradılmasında iştirak edən yazıçı və oxucuların geniş dialoqu üçün nəzərdə tutulan məkandır.

"LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının açılış mərasimində Azərbaycanın Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev çıxış edib. O, dünyanın müxtəlif ölkələrindən festivala gəlmiş çoxsaylı qonaqları salamlayaraq deyib ki, bu payız Azərbaycan üçün, sözün həqiqi mənasında, ədəbi payız olub. O deyib: "Bu, ilk növbədə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi ilə bağlıdır. Bu yubiley dövlət səviyyəsində genişmiqyaslı silsilə tədbirlərlə qeyd edilir. Sevindirici haldır ki, "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalı Bakıda keçirilir. Festivalın işinə və iştirakçılarına uğurlar arzu edirəm".

Sonra "LiFFt" Avrasiya Xalqlarının Mədəni Layihələrinin İnkişafına Dəstək Fondunun direktoru, "Şairin və rəssamın kitabı" layihəsinin müəllifi rəssam Anvar Almuxametov çıxış edib. O, festivalın təşkilatçılarına, xüsusən Heydər Əliyev Fonduna və "Avrasiya Xalqları Assambleyası" beynəlxalq qeyri-hökumət təşkilatları ittifaqına təşəkkürünü bildirib.

Festivalın Təşkilat Komitəsinin sədri, "Avrasiya Xalqları Assambleyası" baş katibinin birinci müavini, Baş Katibliyin rəhbəri Svetlana Smirnova "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının "gözəl ölkənin gözəl paytaxtında" keçirilməsinə yaratdığı imkana və dəstəyə görə Avrasiyanın çoxmillətli ədəbi ailəsi adından Heydər Əliyev Fonduna və şəxsən fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təşəkkürünü bildirib. "Artıq ikinci gündür ki, festivalın iştirakçıları qonaqpərvərlik, mahnı və rəqslər, Azərbaycan mətbəxinin ləziz təamlarından həzz alır, ən başlıcası, Azərbaycan xalqının ürək genişliyini duyurlar", - deyən S.Smirnova çıxışının sonunda festivalın loqosunu xatirə kimi Azərbaycan Yazıçılar Birliyinin sədri Anara hədiyyə edib.

Sonra "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının prezidenti və səfiri Marqarita Al çıxış edib. O, Avrasiya qitəsinin bütün guşələrindən gəlmiş yazıçıları və oxucuları salamlayıb. Onun sözlərinə görə, festival həmişə həmrəylik üsuludur və bu mənada "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalı unikaldır.

Sonra festivalın laureatları - rusiyalı şair, fəlsəfə elmləri doktoru, filosof və ədəbiyyat tənqidçisi, "metametafora" termininin və metakodun fəlsəfi nəzəriyyəsinin müəllifi Konstantin Kedrov-Çelişev, qazax şairi, yazıçı və ədəbiyyatşünas, Qazaxıstanın Əmək Qəhrəmanı, Qazaxıstan SSR Xalq yazıçısı, Qazaxıstanın ictimai-siyasi xadimi, diplomat Oljas Süleymenov, Azərbaycan yazıçısı, Azərbaycanın "Qızıl kəlmə" ədəbi mükafatı laureatı, yazıçıların Nyu York Beynəlxalq Konqresinin iştirakçısı Varis Yolçuyev çıxış etdi. Onlar festival barədə fikirlərini bölüşdülər.

Təntənəli açılış mərasiminin sonunda festivalın bayrağı səhnəyə gətirildi və Azərbaycan nümayəndəsi, yazıçı Varis Yolçuyevə təqdim edildi. Festivalın himni səsləndi.

Festivalın birinci günü öz işini "Müasir dünya ədəbiyyatının qlobal trendləri - gələcək dünya obrazının və gələcəyin adamlarının obrazlarının proqramlaşdırılması və modelləşdirilməsi" (moderator-Riçard Berenqarten (Böyük Britaniya), "Müasir poeziya ədəbiyyatın avanqardında gələcək adamının və sosiumun obrazlarını proqramlaşdırır" (moderator - Toğrul Tanyol (Türkiyə), "Müasir qlobal dünyada ədəbi tərcümənin insanların qarşılıqlı anlaşmasında və gələcək dünyanın formalaşmasında artan əhəmiyyəti" (moderator - Sergey Dmitriyenko (Rusiya) mövzularında plenar iclaslarla davam etdirib.

Qeyd edək ki, "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının azərbaycanlı spikerləri Azərbaycanın Xalq yazıçıları Anar, Elçin Əfəndiyev, Kamal Abdulla, Çingiz Abdullayev, Afaq Məsud, Elmira Axundova, Xalq şairi Ramiz Rövşən, akademik Nizami Cəfərov, Azərbaycanın Xalq artisti Ramiz Fətəliyev və başqalarıdır.

"LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının beynəlxalq spikerləri Oljas Süleymenov (Qazaxıstan), Konstantin Kedrov-Çelişev (Rusiya), şair, nasir, tərcüməçi, Olştın Universitetinin professoru, mədəniyyət sahəsində hər il təqdim edilən marşal Varmiya və Mazur mükafatının laureatı Kşiştov Şatravski (Polşa), yazıçı və dramaturq, İsrailin Baş Naziri Binyamin Netanyahunun kiçik qardaşı İdo Netanyahu (İsrail), əsərləri dünya xalqlarının 40 dilinə tərcümə edilmiş satirik yazıçı, şair, publisist, tərcüməçi, Başqırdıstanın və Rusiya Federasiyasının Əməkdar mədəniyyət işçisi Marsel Səlimov (Rusiya) və başqalarıdır.

Festivalın işi oktyabrın 3-də başa çatacaq.

# Heydər Əliyev Mərkəzində Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin fərdi sərgisi açılıb

Oktyabrın 1-də Heydər Əliyev Mərkəzində II Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində Türkiyənin tanınmış rəssamı Ahmet Güneştekinin "Yaddaşın əlifbası" adlı fərdi sərgisi açılıb. Ekspozisiyada müəllifin 20-dən çox əsəri nümayiş olunur.

AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.



Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov sərginin açılışında çıxış edərək bildirib ki, bu günlərdə ölkəmiz Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə növbəti dəfə Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalına evsahibliyi etdi. Festival çərçivəsində müxtəlif mədəniyyət ocaqlarında təşkil edilən 50-yə yaxın tədbir öz rəngarəngliyi ilə seçilib. Fürsətdən istifadə edərək dünyanın müxtəlif ölkələrindən festivala qatılan qonaqları salamlayıram. İlk növbədə, ölkəmizdə mədəni layihələrin həyata keçirilməsinə verdiyi dəstəyə və bu ili "Nəsimi ili" elan etdiyinə görə Prezident İlham Əliyevə təşəkkür edirəm. Azərbaycan mədəniyyətini dünyada layiqincə təbliğ etdiyinə və belə bir festivalın reallaşmasına göstərdiyi köməyə görə birinci xanım Mehriban Əliyevaya təşəkkürümü bildirirəm.



Bu gün Heydər Əliyev Mərkəzində dünya şöhrətli türkiyəli heykəltəraş Ahmet Güneştekinin əsərləri təqdim olunacaq. Sərginin hər kəsin böyük marağına səbəb olacağını vurğulayan A.Ələkbərov deyib: "Rəssamın Bakı sərgisindəki ekspozisiyasında Azərbaycan xalqının Ümummilli Liderinə həsr etdiyi "Heydər Əliyevin xatirəsinə" adlı əsəri də yer alıb. Bu, rəssamın çoxdankı arzusu idi. Artıq həmin əsər bu gün sizlərə təqdim olunacaq. Ahmet Güneştekinin dahi şəxsiyyət Heydər Əliyevə heyranlığı və hörmətinin nəticəsi kimi ərsəyə gələn əsər qarışıq texnikada işlənib".



Bakıda belə bir möhtəşəm mərkəzdə sərgisinin açılmasından məmnunluğunu ifadə edən Ahmet Güneştekin paytaxtımızı bir mədəniyyət şəhəri kimi dəyərləndirib. "Memarlıq baxımından dünyada tayı-bərabəri olmayan belə bir mərkəzdə sərgimin açılması məni çox qürurlandırır. İlk dəfə Heydər Əliyev Mərkəzini görəndə çox heyrətləndim. Bura nadir bir məkandır. Bu məkan mənim üçün yaratdığım "Ölümsüzlük otağı" qədər dəyərli bir memarlıq nümunəsidir. Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevə vəfa borcu kimi bir əsər həsr etdim. Bu əsərimlə çalışmışam ki, Azərbaycan tarixini və Heydər Əliyev şəxsiyyətini əks etdirim. Bu il, eyni zamanda, Azərbaycanda "Nəsimi ili"dir. Nəsimi dahi söz xiridarıdır. İmadəddin Nəsiminin nadir şəxsiyyətindən və poetik irsindən ilhamlanaraq "Recm Nasimi" adlı əsərimi yaratdım və bununla festivala öz töhfəmi vermək istədim. Festivala dəvət aldığım üçün Azərbaycan dövlətinə minnətdarlığımı bildirirəm", - deyə rəssam qeyd edib.



Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Ekspozisiyada rəssamın İmadəddin Nəsimiyə həsr etdiyi "Recm Nasimi" əsərində sufiliyin ədəbi və fəlsəfi qolu olan hürufiliyin ehkamları əks olunur. Sərgilənən işlər arasında rəssamın məşhur "Ölümsüzlük otağı" da var. Bu möhtəşəm əsər Heydər Əliyev Mərkəzinin binası önündə nümayiş olunur. Rəssam "Ölümsüzlük otağı"nı Şanlıurfa şəhərinin şimal-şərqində yerləşən Göbəkli təpədə aşkar edilmiş arxeoloji tapıntıların təsiri ilə yaradıb. "Gilqameş dastanı" və "Nuh tufanı" əfsanəsi onun əsas ilham mənbələri olub. Böyük əks-səda doğuran əsər ilk dəfə 2018-ci ildə nümayiş etdirilib. Rəssam "Ölümsüzlük otağı" üzərində



müxtəlif peşəyə sahib 130 nəfərlə birgə çalışıb. Əsər 22 min metal kəllə və buynuz hissədən ibarətdir. Onun hazırlanmasında 35 ton alüminiumdan istifadə olunub.

Qeyd edək ki, Türkiyə müasir incəsənətinin əsas simalarından olan Ahmet Güneştekin 1966-cı ildə anadan olub. Beş yaşından rəsm çəkən Güneştekin 1981-ci ildə İstanbula gəlib. 1997-ci ildə İstanbulda ilk studiyasını qurub. 2003-cü ildə Atatürk Mədəniyyət Mərkəzində "Zülmətdən sonra rənglər" adlı ilk böyük sərgisini açıb. 2005-ci ildə "Günəşin izində" sənədli layihəsini həyata keçirib. 2010-cu ildə İstanbulda Güneştekin Sənət Mərkəzini yaradıb. 2013-cü ildə Venesiyada ilk beynəlxalq sərgisini açıb və Malboro (Marlborough) qalereyası ilə əməkdaşlıq etməyə başlayıb.

Rəssamın Heydər Əliyev Mərkəzindəki sərgisi 2020-ci il martın 31-dək davam edəcək.

# YAP Beynəlxalq Ahıllar Günü münasibətilə Bilgəhdəki sosial xidmət müəssisəsinin sakinləri ilə görüş keçirib







Yeni Azərbaycan Partiyasının (YAP) rəhbərliyi 1 oktyabr - Beynəlxalq Ahıllar Günü münasibətilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Bilgəh qəsəbəsində yerləşən Müharibə və əmək əlilləri üçün pansionatında olub.

AZƏRTAC xəbər verir ki, pansionatın sakinləri ilə görüşən Baş Nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, Azərbaycan dövləti, Prezident İlham Əliyev ehtiyacı olan şəxslərə, o cümlədən ahıllara xüsusi diqqət və qayğı ilə yanaşır. Onların rahat yaşaması, ehtiyaclarının ödənməsi üçün lazımi addımlar atılır. Yeni Azərbaycan Partiyası əhalinin müxtəlif təbəqələrinin nümayəndələri ilə, o cümlədən ahıl insanlarla, qocalar evində yaşayanlarla mütəmadi görüşlər keçirir: “Bu qocalar evində YAP olaraq biz, demək olar ki, ildə bir neçə dəfə görüşlər keçiririk, onların problemləri ilə maraqlanırıq, imkan daxilində onların mövcud olan problemlərini öyrənib kömək etməyə çalışırıq”.

Əli Əhmədov onu da qeyd edib ki, bu pansionatın sakinləri üçün lazım olan bütün şərait yaradılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti bütün həssas qruplar kimi, tənha ahıl vətəndaşların da rifah halının yaxşılaşdırılması tədbirlərinin gücləndirilməsinə səbəb olub. Dövlət başçısı tərəfindən imzalanan fərman və sərəncamların həssas qruplara dövlət qayğısının əhəmiyyətli şəkildə artmasına imkan verdiyini vurğulayan nazir bildirib ki, eyni zamanda, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, pensiya təminatının yaxşılaşdırılması, pensiyaların ciddi şəkildə artırılması istiqamətində də əhəmiyyətli addımlar atılıb.

YAP-ın sədr müavini, AMEA-nın prezidenti Akif Əlizadə ölkə başçısının ahıl insanlara göstərdiyi diqqət və qayğıdan danışaraq bu işlərin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirib.

Müəssisənin sakinləri onlara göstərilən yüksək qayğıya, sosial müdafiə tədbirlərinin, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi üçün atılan mühüm addımlara, eyni zamanda, dövlətin himayəsində yaşayan ahıl insanlar üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, YAP icra katibinin müavinləri - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev görüşdə iştirak ediblər.

Tədbir bədii hissə ilə davam edib.

# Müdafiə naziri “Qafqaz Qartalı-2019” təlimləri çərçivəsində “Yüksəksəviyyəli Müşahidəçi Günü”ndə iştirak edib









Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbər heyəti, Türkiyə, Gürcüstan və Pakistandan olan yüksəksəviyyəli qonaqlar Bakıda keçirilən “Qafqaz Qartalı-2019” birgə təlimləri çərçivəsində baş tutan “Yüksəksəviyyəli Müşahidəçi Günü”ndə iştirak ediblər. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirə maket üzərində planlaşdırılan fəaliyyətlər və təlimlərin gedişi barədə məruzə edilib.

Sonra təlimin döyüş atışlı mərhələsində aviasiya vasitələrinin dəstəyi ilə ərazidə xüsusi təyinatlı bölmələr tərəfindən müxtəlif tapşırıqlar icra olunub.

Birgə təlimin yekunlarını təhlil edən Müdafiə naziri təlimlərdə iştirak edən hərbi qulluqçuların döyüş hazırlığını yüksək qiymətləndirib və keçirilən təlimlərin ölkələrimizin, o cümlədən strateji əhəmiyyətli regional layihələrin təhlükəsizliyi baxımından vacibliyini diqqətə çatdırıb. Müdafiə naziri təlimlərin ordularımızın yüksək döyüş qabiliyyətinin göstəricisi olduğunu vurğulayıb. Nazir təlim iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayaraq hər üç ölkənin xüsusi təyinatlılarının təlimlərinin yüksək səviyyədə keçirilməsindən məmnunluğunu bildirib.

Sonda Müdafiə naziri təlimdə təmsil olunan ölkələrin nümayəndələrinə hədiyyələr təqdim edib.

# Əhalinin siyahıyaalınmasından əldə ediləcək məlumatlar ölkənin gələcək inkişafı üzrə qərarlarda əsas informasiya mənbəyi olacaq

Oktyabrın 1-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində Dövlət Statistika Komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Tahir Budaqov oktyabrın 1-dən 10-dək ölkəmizdə başlayan əhalinin növbəti siyahıyaalınmasına həsr olunan mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, komitə sədri Prezident İlham Əliyevin “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında” 2016-cı il 7 sentyabr tarixli fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli qərarına əsasən və Dövlət Statistika Komitəsinin təsdiq etdiyi təqvim planına uyğun olaraq siyahıyaalma ilə bağlı bütün hazırlıq işlərinin tam başa çatdırıldığını deyib. Bildirib ki, siyahıyaalma zamanı əhalinin tam əhatə olunması üçün dolğun uçotun təşkil edilməsi, siyahıyaalmanın rayonlaşdırılması, şəhər, qəsəbə və kəndlərin ərazilərinin siyahıyaalma, təlimatçı və sayıcı məntəqələrinə düzgün bölüşdürülməsinin təmini üçün xüsusi əhəmiyyət daşıyan şəhər, rayon və şəhər rayonları üzrə təşkilati planların tərtib olunması məqsədilə formalar, habelə “Əhalinin siyahıyaalınması ilə bağlı Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə təşkilati planların tərtib edilməsinə dair göstərişlər”, 50-dək digər metodoloji və köməkçi sənədlər hazırlanıb, siyahıyaalma və sorğu vərəqələri Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyada təmsil olunan 19 dövlət qurumu, həmçinin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə razılaşdırılaraq təsdiqlənib.

O qeyd edib ki, təsərrüfatbaşına uçot sənədləri Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Dövlət Statistika Komitəsinə təqdim edilmiş inzibati ərazi vahidlərinin sxematik xəritələri, yaşayış məntəqələrinin sxematik planları əsasında Azərbaycanın inzibati ərazi vahidləri üzrə təşkilati planlar tərtib olunub, bunun nəticəsində ölkə ərazisi 720 siyahıyaalma, 6777 təlimatçı və 33 min 907 sayıcı məntəqəsinə bölünüb, siyahıyaalma məntəqələrinin işçilərlə komplektləşdirilməsi və onların təlimatlandırılması başa çatdırılıb. Daxili İşlər, Müdafiə, Fövqəladə Hallar, Ədliyyə, Səhiyyə, Təhsil nazirliklərinin, Dövlət Təhlükəsizlik, Miqrasiya və Sərhəd xidmətlərinin tabeliyində olan rejimli obyektlərdəki şəxslərin, xarici ölkələrdə müvəqqəti yaşayan Azərbaycan Respublikası vətəndaşlarının siyahıyaalınması məqsədilə metodoloji və digər sənədlər, əyani vəsaitlər, dəftərxana ləvazimatları aidiyyəti dövlət qurumlarına çatdırılıb.

T.Budaqov vurğulayıb ki, siyahıyaalınma ilə bağlı əhalinin məlumatlandırılması məqsədilə hazırlanmış təşviqat materiallarından plakat və banerlər yerli icra hakimiyyətləri tərəfindən müəyyən edilmiş dislokasiya üzrə yerləşdirilib, videoçarxlar isə apreldən başlayaraq televiziya kanalları və aparıcı elektron media vasitələrində, Bakı Metropolitenində, Dənizkənarı Milli Parkda və Dövlət Reklam Agentliyinin paytaxtın mərkəzi küçə və prospektlərində quraşdırılmış elektron lövhələrində yayımlanmaqdadır. Siyahıyaalmaya dair çoxsaylı mətbu məqalələr müxtəlif KİV orqanlarında müntəzəm olaraq dərc edilib, mətbuatda fərdi jurnalist yazılarının da stimullaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birgə cari il iyulun 18-də müsabiqə də elan olunub.

Komitə sədri əlavə edib ki, müstəqillik dövründə sayca üçüncü dəfə keçirilən siyahıyaalmanın sorğu vərəqəsində altsuallarla birlikdə 46 sual, siyahıyaalma vərəqəsində isə 6 sual olmaqla ümumilikdə 52 sual öz əksini tapıb. Siyahıyaalma vərəqəsi ölkə üzrə ev təsərrüfatlarının və ailələrin sayına, yaşayış binaları və evlərə, yaşayış üçün istifadə edilən digər tikililərə dair ətraflı məlumatların əldə olunmasına imkan verəcək. Sorğu vərəqəsində isə siyahıya alınacaq hər bir şəxsin cinsi, yaşı, doğulduğu yer, vətəndaşlığı, milli və ya etnik mənsubiyyəti, ana dili və sərbəst danışdığı dillər, ailə vəziyyəti, siyahıyaalma anında olduğu yerdə daimi və ya müvəqqəti yaşaması, təhsil səviyyəsi, gəlir mənbələri, məşğulluq vəziyyəti, əlilliyi, əhalinin ölkədaxili yerdəyişməsinin və xarici miqrasiyanın səbəbləri və sair mühüm göstəricilər üzrə suallar öz əksini tapıb.

O bildirib ki, siyahıyaalma başa çatdıqdan sonra siyahıyaalma materialları ilin sonunadək Siyahıyaalma qrupuna təhvil veriləcək, 2020-ci il ərzində işə qəbul ediləcək operatorlar vasitəsilə onların elektron məlumat sisteminə daxil edilməsi, proqram təminatı vasitəsilə məntiqi yoxlanılması prosesi həyata keçiriləcək. Sonrakı il yarım ərzində siyahıyaalma məlumatları emal ediləcək, əldə olunacaq çıxış cədvəlləri əsasında siyahıyaalmanın yekunlarına dair məcmuələr nəşr edilərək istifadəçilərə çatdırılacaq.

T.Budaqov oktyabrın 1-10-da respublikada əhalinin siyahıyaalınmasının uğurla həyata keçirilməsi, yeni əhaliyə dair demoqrafik, iqtisadi və sosial əlamətlər üzrə dolğun məlumatların əldə edilməsi üçün ilk növbədə bu prosesdə vətəndaşların fəal iştirakının, habelə siyahıyaalma və sorğu vərəqələrindəki sualların düzgün cavablandırılmasının vacibliyini qeyd edib. Bildirib ki, siyahıyaalma suallarına verilən dolğun və düzgün cavablar hər şeydən əvvəl bir vətəndaşlıq borcudur, çünki siyahıyaalmadan əldə olunacaq məlumatlar ölkəmizin gələcək inkişafı məqsədilə qəbul ediləcək qərarlar üçün əsas informasiya mənbəyi olacaq, bundan üzvü olduğumuz bütün cəmiyyət bəhrələnəcək.

Sonra KİV nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

# Gəncədə “Yollarda təhlükəsiz davranışı həyat tərzinə çevirək” adlı konfrans keçirilib

Azərbaycan Avtomobil Federasiyasının (AAF) təşkilatçılığı və “Regional İnkişaf” İctimai Birliyinin dəstəyi ilə Gəncədə Yol Hərəkəti Təhlükəsizliyi həftəsi çərçivəsində “Yollarda təhlükəsiz davranışı həyat tərzinə çevirək” adlı konfrans təşkil olunub. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən konfransda əvvəlcə Azərbaycan Avtomobil Federasiyası tərəfindən hazırlanmış və yol hərəkəti təhlükəsizliyinə həsr olunmuş videoçarx izlənilib.

Konfransda yol hərəkətinin təhlükəsizliyi istiqamətində ölkəmizdə görülmüş işlər və Prezident İlham Əliyevin sərəncamı ilə 2018-ci il dekabrın 27-də qəbul olunmuş “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı” barədə məlumat verilib.

Dövlət proqramında nəzərdə tutulmuş təbliğat və təşviqat işləri ilə bağlı danışan AAF-ın baş katibi Anar Şükürov “Yol hərəkəti təhlükəsizliyində könüllülərin rolu” layihəsini təqdim edib.

Bildirilib ki, layihənin məqsədi ölkəmizdə aparılan gənclər siyasətinə, eləcə də dövlətimizin bu istiqamətdə gördüyü işlərə dəstək vermək, yol hərəkəti təhlükəsizliyində ictimai iştirakı təmin etmək, tələbələr arasında birbaşa maarifləndirmə kampaniyaları aparmaq, yol hərəkəti təhlükəsizliyi sahəsində problemlərin aradan qaldırılmasına töhfə vermək və gənclərin yol hərəkəti qaydalarına riayət etməsini təmin etməkdə birbaşa yardımçı olmaqdır.

Sonra yol hərəkəti üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov nəqliyyat hüququ, bu sahədə beynəlxalq konvensiyalar, ölkəmizdəki normativ hüquqi aktlar, eləcə də yol hərəkəti təhlükəsizliyinin ümumi vəziyyəti, yol hərəkəti iştirakçılarının təhlükəsiz davranışı, həmçinin sürücü və piyadaların vəzifə və öhdəlikləri, sürücülük mədəniyyətinin yüksəldilməsi istiqamətində görülmüş işlərdən danışıb.

Konfransda “Regional İnkişaf” İctimai Birliyinin layihələr şöbəsinin müdiri Cəmil Əliyevin, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Ramin Bayramovun mövzu ətrafında çıxışları olub. Çıxışlarda regionlarda yol hərəkəti təhlükəsizliyi sahəsində təbliğat-təşviqat işlərinin aparılmasının zəruriliyi qeyd edilib.

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il oktyabrın 1-dək 103 milyon 271 min 100,18 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# “AzerGold” QSC ilə ADAU arasında əməkdaşlıq memorandumu imzalanıb





Sentyabrın 30-da Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) və “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) arasında əməkdaşlıq haqqında memorandumun imzalanmasına dair görüş keçirilmişdir. Görüşdə Azərbaycan Dövlət Aqrar Universitetinin tədris işləri üzrə prorektoru Anar Hətəmov və “AzerGold” QSC-nin İdarə heyətinin sədr müavini Oqtay Məmmədov iştirak ediblər.

Tərəflər arasında imzalanan memorandum ADAU-nun tələbələrinin “AzerGold” QSC-də istehsalat təcrübəsi keçməsini, gələcək mütəxəssislərin ixtisas biliklərinin artırılmasını, təhsil, elm, istehsalat və birgə təhsil proqramları sahəsində əməkdaşlığı əhatə edir. Tərəflər arasında birgə əməkdaşlıq çərçivəsində mədənçıxarma sənayesinin inkişafına və bu sənaye ilə əlaqədar infrastruktur layihələrinin icrasına cəlb olunacaq müasir tələblərə cavab verən ixtisaslı mütəxəssislər hazırlanacaq, birgə simpozium və konfranslar təşkil olunacaq, qabaqcıl üsul və texnologiyaların inkişafı sahəsində təcrübə mübadiləsi aparılacaq, “AzerGold” QSC-nin mütəxəssisləri tərəfindən master-klaslar təşkil olunacaq.

Qeyd edək ki, “AzerGold” QSC artıq Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, ADA Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Azərbaycan Texniki Universiteti ilə geniş və çoxşaxəli əməkdaşlıq qurub. Bu əməkdaşlıq çərçivəsində Çovdar filiz emalı sahəsinə tanıtım səfərləri, təcrübə proqramları, master-klasslar, təcrübə mübadiləsi təşkil olunur. Bugünədək universitetlərlə qurulan əməkdaşlıq çərçivəsində 100-dən çox tələbə dağ-mədən mühəndisliyi, geoloji kəşfiyyat, iqtisadiyyat, ictimaiyyətlə əlaqələr, mühəndis sistemləri və qurğularının tikintisi, insan resurslarının və biznesin idarəolunması sahələrində “AzerGold” QSC-də təcrübə keçərək praktiki biliklər əldə ediblər.

***“Azərbaycan”***

# İslahatçı Prezidentin ölkəsi də beynəlxalq reytinqlərdə öndədir

Əvvəli 1-ci səh.



BVF-nin həyəcan təbili çaldığı belə bir vaxtda Azərbaycan üzrə bu fondun missiya rəhbəri Natalia Tamirisa ölkəmizin xarici dövlətlər qarşısında öhdəliklərinin azaldılması ilə bağlı niyyətləri barədə nikbin hesabatla çıxış etdi. O praqmatik məruzəsini real rəqəmlərin üstündə qurmuşdu və yalnız faktların aliliyinə söykənirdi. Natalia xanım birinci onu qeyd etmişdi ki, fond Bakı ilə maliyyə vəsaitlərinin alınması üzrə danışıqlar aparmır və ümumiyyətlə, 2005-ci ildən üzü bəri Azərbaycana heç bir kredit ayırmamışdır. Bakı heç vaxt maliyyə yardımı üçün müraciət etməmiş və buna ehtiyac duymamışdır. BVF missiyasının bu ölkəyə səfərinin əsas məqsədi maliyyə yardımlarının məzmunu və kreditlərin ayrılması yox, yalnız fondun nizamnaməsinin IV maddəsinə uyğun ənənəvi məsləhətləşmələrin keçirilməsi olmuşdur. Fondun ölkə rəhbərliyi, işgüzar dairələr və digər maraqlı tərəflərlə keçirdiyi bütün görüşlərdə bir qayda olaraq iqtisadi xülasələr, maliyyə sektorundakı problemlər və struktur islahatları müzakirə edilir. Yəni BVF Bakıya ötən əsrin sonunda olduğu kimi, yeni əsrin əvvəlində də nəzarət etmir, hər hansı tələbləri irəli sürmür. Sadəcə bərabərhüquqlu tərəflərin bərabər müzakirələri aparılır. Dünya iqtisadiyyatında mövcud təhlükələrlə bağlı həyəcan təbili çalındığı bir vaxtda Azərbaycanla bağlı nikbin məruzənin təqdim edilməsi ölkə və hər bir vətəndaş üçün qürurverici məqamdır.

Həqiqətən də ölkəmizin iqtisadi uğurları, apardığı islahatlar həm dünya mətbuatının, həm də nüfuzlu beynəlxalq reytinq agentliklərinin diqqət mərkəzindədir. Nailiyyətlərimiz izlənilir, araşdırılır, islahatlar dəyərləndirilir və bu haqda dünya ictimaiyyətinə geniş məlumat verilir. Bu ona görə belədir ki, Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlər qısamüddətli deyil, kampaniya xarakteri daşımır və başlıcası, israrla həyata keçirilən uğurlu siyasətin, sistemli və ardıcıl islahatların son nəticəsidir. Ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən çoxsaylı proqramların hamısını sadalamadan onu qeyd edə bilərik ki, qarşıya qoyulan məqsədlərin hamısı nəzərdə tutulan vaxtda və ən yüksək səviyyədə yerinə yetirilir. Əldə edilən nəticələrə görə, ölkəmiz nüfuzlu reytinq agentlikləri tərəfindən demək olar ki, ildə bir neçə dəfə yüksək qiymətləndirilir.

Azərbaycanın dünyanın inkişaf etmiş nəhəng ölkələri ilə bir sırada durması, adının onlarla yanaşı çəkilməsi möhtəşəm uğurları təsdiq edən bariz nümunədir. Bütün beynəlxalq reytinq agentliklərinin verdiyi qiymətləndirmələr iqtisadiyyatın hərtərəfli inkişafını, islahatların mükəmməl icrasını təsdiq edir.

Ölkə iqtisadiyyatının sürətlə bütün istiqamətlərdə şaxələndirilməsi, qeyri-neft sektorunda reallaşdırılan nəhəng layihələr, aqrar sektorun ənənəvi sahələrinin yüksək templə inkişafı, yüz minlərlə yeni iş yerlərinin açılması, işsizliyin minimum həddə endirilməsi Azərbaycanı nəinki regionda irəli çəkdi, hətta dünyanın inkişaf etmiş ölkələri ilə bir sırada durmasına səbəb oldu. Qürurverici haldır ki, iqtisadiyyatın və hərbi sənayenin yeni intellektual sahələrinin yaradılması sayəsində biz həm də silah ixrac edən ölkəyə çevrilmişik. İqtisadi ekspertlər həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə etiraf edirlər ki, əgər son illər ərzində ölkədə bütün sahələrdə sanballı və iritutumlu səmərəli sosial-iqtisadi islahatlar aparılmasaydı, onların həyata keçirilməsi ciddi nəzarətə götürülməsəydi, yeni uğurlara imza atmaq çətin olardı.

Ölkəmizin dünyaya açıq olması, demokratik dəyərlərə üstünlük verməsi, iqtisadi və siyasi azadlıqların təminatçısı kimi çıxış etməsi, həmçinin qabaqcıl dünya təcrübəsinə sürətlə yiyələnməsi, daxili və xarici sərmayədarları həvəsləndirməsi, onların maneəsiz fəaliyyəti üçün ciddi güzəştlərin tətbiq edilməsi öz bəhrəsini verdi.

Müstəqilliyin ilk onilliklərində Azərbaycan iqtisadi baxımdan özünü tamamilə təmin edən və sürətlə islahatlara gedən ölkə kimi məşhurlaşdı. Ölkənin iqtisadi müstəqilliyinin tam təmin edilməsi onu regionda yeni güc mərkəzinə çevirdi, heç bir dövlətdən asılı olmayan sərbəst siyasət yeritməyə imkan verdi. Prezident İlham Əliyev uğuru təmin edən amilləri belə qeyd edir: "Biz həmişə populizmdən, populist ritorikadan uzaq olmuşuq. Bəzən hətta çalışmışıq ki, özümüzü o qədər də nümayiş etdirmədən, sadəcə, ölkənin uğurla inkişaf etməsi üçün lazım olan işi görək".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Dünya yenidən Bakıda toplaşır

## Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi yüksək beynəlxalq nüfuzun və etimadın nümunəsidir

Əvvəli 1-ci səh.

*Qoşulmama Hərəkatı beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü prinsiplərinə, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiqdir".*

Bütövlükdə mövcud olduğu müddət ərzində hərəkata üzv dövlətlər ortaq prinsip və dəyərləri qoruyub saxlayıb və qarşılıqlı əməkdaşlığa gətirib çıxaran fəaliyyət üçün ortaq zəmin yaratmaq bacarığı nümayiş etdiriblər. Hərəkat qoşulmama anlayışını müsbət və cəlbedici səy kimi formalaşdıra bilib. Müstəmləkələrin ləğv edilməsi və qlobal sosial inkişaf gündəliyinin yaradılması kimi XX əsrin ən mühüm nailiyyətlərindən bir çoxu hərəkatın bu günədək dünyaya verdiyi önəmli töhfələri sırasındadır.

### Azərbaycanın maraqlarının təmini üçün yeni imkanlar

Azərbaycan bütün dövlətlərlə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş xarici siyasət kursu və heç bir hərbi bloka qoşulmadan balanslı siyasət həyata keçirir. Bu səbəbdən ölkəmiz müşahidəçi statusuna malik olduğu Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olmaq qərarını verib. Həmin il Balidə keçirilmiş XVI Nazirlər Konfransında hərəkata qoşulub.

Qoşulmama Hərəkatına üzvlük ölkəmizin milli maraqlarının və mənafeyinin beynəlxalq müstəvidə təmin edilməsi, müxtəlif dövlətlərlə ikitərəfli və çoxtərəfli formatda münasibətlərin inkişaf etdirilməsi üçün yeni əlverişli imkanlar açdı. Elə 2011-ci ildə Azərbaycan Respublikasının 155 ölkənin dəstəyini qazanmaqla BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində QH ölkələrinin səsinin mühüm rol oynaması bu platformaya qoşulmaqla bağlı verilmiş siyasi qərarın nə qədər uzaqgörən bir addım olduğunu əyani surətdə sübut etdi.

Qeyd edək ki, Azərbaycanı QH-də təmsil olunan ölkələrin bir çoxu ilə tarixən hansısa formada müxtəlif tellər bağlayır. Region, ərəb və müsəlman ölkələri ilə tarixi və dini bağlılığımız var. Yaxud, keçmiş sovetlər dönəmində Vyetnamdan tutmuş Kubaya qədər nəhəng bir coğrafiyadan minlərlə insan Azərbaycanda ali təhsil alıb. Məsələn, təkcə Afrika qitəsindən bu rəqəm 12-15 min civarındadır.

Azərbaycanın QH-yə üzv olması həm də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyinə daha çox dəstək əldə edilməsi işinə öz töhfəsini vermişdir. Təsadüfi deyildir ki, QH-nın yekun sənədlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll edilməsinin və bu kontekstdə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi birmənalı şəkildə ifadə olunub. Məsələn, XVII sammitdə dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qətnamələrinə rəğmən, Ermənistan və Azərbaycan arasındakı münaqişənin həll olunmamasına, beynəlxalq və regional sülh və təhlükəsizliyə təhdid yaratmaqda davam etməsinə öz təəssüflərini ifadə etdilər. Bu həmrəylik hərəkatın bir daha təcavüz, xarici hərbi işğal və etnik təmizləməyə qarşı böyük sədaqətini nümayiş etdirdi.

Hərəkatın keçən ilin aprelində Bakıda keçirilmiş Nazirlər Konfransının Yekun Sənədində də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması, beynəlxalq və regional sülh və təhlükəsizliyi təhdid altında qoymaqda davam etməsi ilə bağlı təəssüf ifadə olunur. Nazirlər BMT Nizamnaməsində öz əksini tapmış gücdən istifadə etməmək prinsipinin əhəmiyyətini bir daha təsdiq edərək tərəfləri münaqişəni Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri əsasında həll etməyə çağırıblar. Bu beynəlxalq ictimaiyyətin münaqişənin həllinə dair yekdil və qəti mövqeyinin ifadəsidir.

### QH-yə sədrlik Azərbaycanın uğurlarını dünyaya daha yaxından tanıtdıracaq

Respublikamız Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiqdir. Rəsmi Bakı bütün dövlətlərlə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş xarici siyasət kursu və heç bir hərbi bloka qoşulmadan müstəqil siyasət həyata keçirir. Ona görə hərəkata üzv olduğu nisbətən qısa müddət ərzində Azərbaycan özünün uğurlu xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb. Məhz QH tərəfindən ölkəmizə olan etimadın və dövlətimizin artan nüfuzunun göstəricisidir ki, qısa müddət ərzində üzv olmasına baxmayaraq, üzv dövlətlər tərəfindən yekdilliklə Azərbaycanın bu təşkilata sədrliyi dəstəklənib. Belə ki, 2016-cı ilin sentyabrında hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının XVII zirvə görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illərdə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdilliklə qərar qəbul olunub.

Prezident İlham Əliyevin sərəncamı ilə zirvə görüşünün təşkili məqsədilə bu ilin fevralında müvafiq dövlət qurumlarının rəhbərlərindən ibarət Təşkilat Komitəsi yaradılıb. Martda təsdiq edilmiş Tədbirlər Planında Zirvə Görüşünün təşkili ilə bağlı həyata keçiriləcək bütün işlər tam təfsilatı ilə qeyd edilib.

Bakı sammiti ilə Azərbaycan hərəkatın sədrliyini üzərinə götürəcək. Azərbaycan hərəkata sədrliyini mürəkkəb bir dövrdə qəbul edir və bu, müasir dünyanın çağırışlarına uyğun və effektiv reaksiyalarımızı tələb edir. Növbəti sədr qismində Azərbaycan müharibəyə qarşı və sülhsevər qüvvə kimi hərəkatın rolunun gücləndirilməsi və BMT-nin Nizamnaməsi və "Bandunq prinsipləri"nin dəstəklənməsi, həmçinin BMT ilə çoxtərəfli əlaqələrin təşviq edilməsi, qorunması və gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcək.

QH-nin fəaliyyətinin əsaslarını təşkil edən tarixi "Bandunq prinsipləri" Azərbaycanın xarici siyasətinin ana xətti ilə uzlaşır. Bu prinsiplər özündə bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, başqa ölkələrin suverenliyinə və ərazi bütövlüyünə qarşı fəaliyyətdən və güc tətbiqindən imtina, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı maraqların və əməkdaşlığın təşviqi, ədalətə və beynəlxalq öhdəliklərə hörməti ehtiva edir. Bu baxımdan respublikamızın sədrliyi zamanı fəaliyyət, prioritetlər məhz bu təməl prinsiplər üzərində qurulacaq. Məqsəd üzv dövlətlərlə birgə QH-nin beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə və dayanıqlı inkişafa töhfəmizi artırmaq olacaq.

Zirvə görüşü, eləcə də sədrlik Azərbaycanın əldə etdiyi nailiyyətlərin dünyada daha da tanıtdırılmasına və təşviq edilməsinə öz töhfəsini verəcək. Eyni zamanda Azərbaycanın QH-də və ümumən dünyada nüfuzunu daha da artıracaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Beynəlxalq qurumlar ARDNF-nin şəffaf və mükəmməl fond olduğunu vurğulayırlar

İlin sonunda Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) təsis edilməsinin 20 ili tamam olacaq. Ötən illər ərzində bu fond Azərbaycanın inkişafında böyük rol oynayıb və dünyanın ən şəffaf suveren fondlarından biri kimi tanınıb. Cari il sentyabrın 26-da ARDNF-nin 20 illik yubileyi çərçivəsində fondun təşkilatçılığı, Beynəlxalq Maliyyə Korporasiyasının tərəfdaşlığı və Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə Bakıda keçirilən "Müsbət təsirli investisiya: institusional investorlar üçün imkanlar və çağırışlar" konfransı bu qurumun qazandığı nüfuz və etimadın daha bir göstəricisinə çevrildi.



ARDNF Ümummilli Lider Heydər Əliyevin əvəzsiz yadigarlarından biridir. Məlum olduğu kimi, sovet dönəmində Azərbaycanda böyük həcmdə neft çıxarılırdı. Lakin keçmiş SSRİ-nin planlı təsərrüfatı, ittifaqa daxil olan bütün respublikaların ümumi büdcədən eyni dərəcədə faydalanması təbiətin bəxş etdiyi bu zənginlikdən xalqımızın lazımınca bəhrələnməsinə imkan vermirdi.

Müstəqilliyin bərpasından sonrakı ilk illər isə Azərbaycan üçün çətin keçdi. Məlum səbəblərdən ölkə iqtisadiyyatı, o cümlədən neft-qaz sənayesi tənəzzülə uğradı. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində 1994-cü ildə tanınmış beynəlxalq neft şirkətləri ilə "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi üçün sazişin imzalanmasından sonra Azərbaycan iqtisadiyyatının qəddi düzəldi. Ölkənin gələcək inkişafına təkan verən bu möhtəşəm kontrakt "Əsrin müqaviləsi" adını aldı. "Əsrin müqaviləsi" ölkəmizin yeni neft-qaz strategiyasının əsasını qoydu və təsdiqlədi ki, müstəqil Azərbaycanın xalqı suveren hüquqlara malikdir və öz sərvətinin sahibidir.

Bu sərvətin xalqa davamlı şəkildə xeyir-bərəkət gətirməsi məqsədilə 1999-cu il dekabrın 29-da Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun təsis edilməsi haqqında fərman imzaladı. Bir il sonra - 2000-ci il dekabrın 29-da Ulu Öndərin növbəti fərmanı ilə ARDNF-nin Əsasnaməsi təsdiq olundu. Bundan yarım il sonra daha bir fərmanla fondun vəsaitlərinin yerləşdirilməsi qaydaları təsdiq edildi və qurum əməli fəaliyyətə başladı.

ARDNF-nin fəaliyyəti xeyirxah, məqsədyönlü və uzaqgörən siyasət əsasında qurulub. Qurumun qarşısında çox mühüm vəzifələr dayanır və hamısı müvəffəqiyyətlə yerinə yetirilir. Yeri gəlmişkən qeyd edək ki, həmin vəzifələr sırasında ölkədə makroiqtisadi sabitliyin qorunması, neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və s. xüsusi yer tutur. Fondun fəaliyyəti eləcə də ölkənin sosial-iqtisadi tərəqqisi naminə nəhəng layihələrin maliyyələşdirilməsinə yönəldilib. Neft ehtiyatları bərpa olunmur, yəni hasil edildikcə azalır, tükənir. Ona görə Neft Fondunun ən başlıca vəzifələrindən biri gəlirlərin nəsillər arasında bərabər bölüşdürülməsi, gələcək üçün ehtiyat vəsaitlərin toplanmasıdır.

Bu il mayın 29-da 26-cı Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışında Prezident İlham Əliyev demişdir: "Dövlət Neft Fondunun yaradılması və Dövlət Neft Fondunun xətti ilə ən vacib məsələlərin həlli - bu da uğurlu neft siyasətimizin nəticəsində olmuşdur. Yüzdən çox köçkün şəhərciyi Dövlət Neft Fondunun xətti ilə inşa edilmişdir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastruktur layihələrinə investisiya qoyuluşu da məhz bu layihələrlə bağlıdır. Biz son illərdə əsas infrastruktur layihələrimizi icra etdik və bu istiqamətdə işlər davam etdirilir... Bu layihələrin icrası və ümumiyyətlə, Azərbaycanın əsası Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının icrası tamamilə yeni bir vəziyyət yaratmış və ölkəmiz sürətlə inkişaf etməyə başlamışdır. Biz neftdən əldə edilən gəlirləri qeyri-neft sektorunun inkişafına, insan kapitalına qoymağa başlamışıq. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağının tikilməsi, yeniləşən infrastruktur, sosial layihələrin, vətəndaşların sosial problemlərinin həlli - bütün bunların təməlində bizim uğurlu neft siyasətimiz dayanır".

Sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə dövlət başçısı ARDNF-nin Azərbaycanın həyatındakı böyük rolunu bir daha vurğuladı, qurumun şəffaf fəaliyyətini qeyd etdi: "Əsrin kontraktı"nın çox böyük faydası var və biz vəsaitdən düzgün istifadə etdik. Neft Fondunun gəlirlərindən yalnız büdcə çərçivəsində istifadə etmək mümkündür. Yəni Azərbaycan vətəndaşları Milli Məclisdə öz təmsilçiləri vasitəsilə bu vəsaitin bölgüsündə iştirak edirlər".

Bütün bunların nəticəsidir ki, bir çox beynəlxalq təşkilatlar da ARDNF-nin fəaliyyətini yüksək qiymətləndirirlər. Bu günlərdə Prezident İlham Əliyev Beynəlxalq Maliyyə Korporasiyasının iqtisadiyyat və özəl sektorun inkişafı üzrə vitse-prezidenti Hans Piter Lankesin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edəndə həmin məsələlərə ətraflı toxunulub. H.Lankes deyib: "Dövlət Neft Fondu bizim uzunmüddətli yaxın tərəfdaşımızdır. Zənnimizcə, bu fond peşəkarcasına idarə olunan fondlardan biridir və biz bu əlaqələrimizə böyük önəm veririk... Azərbaycan Respublikası Dövlət Neft Fondunun özünəməxsus sərmayə strategiyasına malik olması rəmzi məna daşıyır. Bir sözlə, çox yaxşı münasibətlərimiz mövcuddur".

"Müsbət təsirli investisiya: institusional investorlar üçün imkanlar və çağırışlar" konfransında isə ARDNF-nin inkişaf etməkdə olan iqtisadiyyatlardan BMK-nın Vəsaitlərin İdarə Edilməsi (Asset Management Company) şirkətinin idarə etdiyi aktivlərə sərmayə qoymuş ilk investor olduğu bildirilib.

ARDNF-nin vəsaitlərindən bacarıqla, məqsədyönlü istifadə edilməsi Prezident İlham Əliyevin yürütdüyü düzgün, uzaqgörən siyasətin nəticələrindən biridir. Dövlət başçısının özünün də dediyi kimi: "Biz qara qızılı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan Asiyanı həm Qərblə, həm də Şimalla birləşdirir

## Prezident İlham Əliyevin geoiqtisadi təşəbbüsləri əsasında qitələr arasında körpülərin qurulması ölkəmizə böyük dividendlər gətirəcək

Əvvəli 1-ci səh.

Yəni Azərbaycan bu dəhlizlərin Cənubi Qafqazda qovuşduğu məkandır və ölkəmizin nəqliyyat-logistika potensialı qitə miqyasında inteqrasiyanı gücləndirir.

Azərbaycanın sərmayə yatırdığı əhəmiyyətli nəqliyyat layihələrindən biri "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"dir. Son dövrlərdə bu nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regionda, fərqli qütblər arasında geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda sabit və balanslı xarici siyasət yürüdən Azərbaycan yeni siyasi və iqtisadi dividendlər əldə etməyi hədəfləyir.

2000-ci ildə İran, Rusiya və Hindistan tərəfindən dövlətlər arasında nəqliyyat əlaqələrini inkişaf etdirmək məqsədi ilə yaradılan bu layihənin gerçəkləşməsi istiqamətində Azərbaycanın da böyük payı var. 2005-ci il iyulun 24-27-də Tehran şəhərində və 2005-ci il fevralın 9-da Bakıda "Şimal-Cənub nəqliyyat dəhlizi"nin tikintisi, gələcək istismarı, beynəlxalq konsorsiumun yaradılması və maliyyələşdirilməsi üsulları, hər bir tərəfin tikintidə payı, qoyulacaq əsaslı vəsaitin qaytarılması yolları və digər məsələlər müzakirə edilib və razılığa gəlinib. Sonrakı illərdə isə ümumilikdə 13 dövlət - Azərbaycan, Belarus, Bolqarıstan, Ermənistan, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Oman, Rusiya, Tacikistan, Türkiyə və Ukrayna bu sazişə imza atıb.

2005-ci ildən etibarən layihənin önəmli parçasına çevrilən ölkəmiz son illərdə üzərinə götürdüyü bütün vəzifələri icra edib. Bu dəhliz vasitəsi ilə yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirildikdən sonra qatarlara yüklənməsi və İranın mövcud dəmir yolu ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülməsi və birbaşa Azərbaycan ərazisindən Rusiyaya, oradan da Şimali Avropa ölkələrinə çatdırılması planlaşdırılır. Hazırkı marşrut (Süveyş kanalı) üzrə malların çatdırılma vaxtı 45-60 gündür, "Şimal-Cənub nəqliyyat dəhlizi" vasitəsilə bu zamanın 14-20 gün olması gözlənilir.

İran sərhəddinə qədər dəmir yolu infrastrukturunun yenilənməsi təmin edilib və 2018-ci ilin martında İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin ölkəmizə rəsmi səfəri çərçivəsində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi ilə bağlı saziş imzalanıb. Azərbaycan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun tezliklə istifadəyə verilməsində maraqlıdır. Astara (AR)-Astara (İİR) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər olan 8,3 kilometr yeni yolun, Astaraçay üzərindəki körpü və İran ərazisindəki 1,4 kilometr yolun tikintisi tamamlanıb. Bu dəhlizin Qəzvin-Rəşt (175 km) hissəsinin tikintisi ilə bağlı İran tərəfi ilə danışıqlar aparılır və işlərə başlanmaq üzrədir. Azərbaycan bu dəmir yolunun tikintisinin maliyyələşdirilməsində də iştirak edir. Rəsmi Bakı İran tərəfinə bəhs olunan dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kredit ayırmağı nəzərdə tutub.

Azərbaycanın "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" ilə bağlı layihənin ciddiliyini nəzərə alaraq investisiya yatırması və üzərinə götürdüyü işləri vaxtında icra etməsi ölkəmizə beynəlxalq arenada etibarlı tərəfdaş imicini qazandırıb.

Son illərdə Bakı-Tbilisi-Ceyhan dəmir yolunun, Ələtdə Beynəlxalq Limanın tikilib istifadəyə verilməsi və azad iqtisadi zonanın yaradılması nəticəsində Azərbaycan Mərkəzi Asiyanı Qərblə (Türkiyə və Avropa İttifaqı), Cənubi Asiyanı (İran və Hindistan) isə Şimalla birləşdirən nəqliyyat qovşağına çevirilmək istiqamətində inamlı addımlar atır.

Hazırda beynəlxalq siyasi arenada baş verən gərginliklər, "Şimal-Cənub" layihəsinin reallaşmasını gecikdirsə də, bu problemin ölkəmizdən qaynaqlanmadığı aydındır. Azərbaycan gerçəkləşdirilməsi gərəkən bütün infrastruktur layihələrini uğurla həyata keçirib.

İllər öncə, "Şimal-Cənub" dəhlizinin Azərbaycana çox böyük iqtisadi mənfəət gətirəcəyini bildirən Prezident İlham Əliyev vurğulamışdı ki, ölkəmizdən keçən bu yol milyonlarla ton əlavə yükün ərazimizdən daşınmasına xidmət edəcək. Bunun həm siyasi, həm iqtisadi gəlirlər gətirəcəyi isə şübhə doğurmur. Artıq Azərbaycanın bu dəhliz vasitəsi ilə təməlli iqtisadi gücə çevrilməsi də danılmaz faktdır. Misal üçün, hesablamalara görə, 2020-ci ilə Azərbaycanın tranzit potensialı 600-700 milyon dollara və ya 300 min konteynerə çatacaq.

Göründüyü kimi, regional əməkdaşlığın aparıcı qüvvəsi olan Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan yeri və rolu bu günümüzün reallıqlarından daha aydın görünür. Artıq iştirakçısı olduğumuz beynəlxalq transmilli layihələr ölkəyə iqtisadi dividendlər gətirir.

"Asiya ilə Avropa arasında ən qısa yol bu gün Azərbaycandan keçir" deyən cənab İlham Əliyevin müstəqil siyasətinin nəticəsidir ki, Azərbaycan xalqlar, dövlətlər arasında körpülərin qurulmasında öz rolunu oynamağa davam edir. Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolların üzərində olan Azərbaycan qitələri, ölkələri birləşdirərək daha uğurlu gələcəyə doğru inamla addımlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Heç kim unudulmur, heç nə yaddan çıxmır

## "Babək 44" taborunun keçmiş döyüşçüləri ilə görüş keçirilmişdir

1992-ci ildə yaranmış "Babək 44" taborunun keçmiş döyüşçülərinin Tərtərdə görüşü təşkil edilmişdir.



Müdafiə Nazirliyi, "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyi və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə keçmiş döyüşçülər Tərtərdəki Şəhidlər abidə kompleksinin, Azərbaycanın Milli qəhrəmanları Vəzir Orucovun və Elman Hüseynovun büstləri önünə əklil və tər gül dəstələri qoyublar. Rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələri, Qarabağ müharibəsi veteranları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək xatirəsinə ehtiramlarını bildiriblər.

Sonra Tərtər Rayon Mədəniyyət Mərkəzində "Babək 44" taboru haqqında çəkilmiş filmin təqdimatı olub. İlk olaraq respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət Himni səsləndirilib.



Filmin ideya rəhbəri, ehtiyatda olan zabit Nazim Quliyev çıxış edərək "Babək-44" taboru və film haqqında məlumat verib. Bildirib ki, 1992-ci ildə yaradılmış bu hərbi hissənin tərkibində şərəfli döyüş yolu keçmiş "Babək 44" taboru ən qızğın döyüşlərdə göstərdiyi rəşadət və qəhrəmanlıqla seçilib. Tabor 400 nəfərə qədər əsgər və zabitdən formalaşıb, döyüşlərdə 174 şəhid və itki verib. Taborun döyüşçülərindən ikisi Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, yeddi nəfər "Azərbaycan Bayrağı" ordeni, iki nəfər isə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Sonra filmə baxış olub. Filmdə taborun yaranma tarixi, keçdiyi döyüş yolu, göstərdiyi qəhrəmanlıqlar, döyüşdüyü əsas ərazilər barədə məlumat verilir. Filmin çəkilişləri zamanı Dağlıq Qarabağ uğrunda, Ağdərə ətrafında gedən döyüş kadrlarından, həmçinin döyüşlərdə iştirak etmiş şahidlərin, komandirlərin, şəhid valideynlərinin müsahibələrindən istifadə olunub.

Tədbir iştirakçıları N saylı hərbi hissədə əsgər və zabit heyəti ilə görüşüblər. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxışında keçmiş döyüşçülərin görüşünün təşkilini və "Babək 44" taboru haqqında çəkilmiş filmi yüksək qiymətləndirib, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə göstərilən dövlət qayğısından, xalqla ordunun monolit birliyindən danışıb. Bildirib ki, Qarabağ müharibəsi zamanı igidliklə döyüşmüş tərtərlilər bu gün də öz doğma torpaqlarında mətin dayanıb və Ali Baş Komandanın əmri ilə torpaqlarımızın azad olunması uğrunda döyüşə atılmağa hər an hazırdırlar.

"Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin sədri Firudin Məmmədov, "Babək 44" taborunun ilk komandirləri Elxan Qəniyev, Abukər Mirzəyev və başqaları çıxış edərək taborun keçdiyi şərəfli döyüş yolundan, Azərbaycan Ordusunun qüdrətindən danışıblar. Çıxışlarda hərbi qulluqçuların, eləcə də müharibə veteranlarının hər an müqəddəs savaşa hazır olduğu bildirilib.

Sonra xidmətdə fərqlənən hərbi qulluqçulara və "Babək 44" taborunun keçmiş döyüşçülərinə fəxri fərman və hədiyyələr təqdim olunub.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının, Gəncə qarnizonunun İdeoloji və Mədəniyyət Mərkəzinin və respublikanın tanınmış incəsənət xadimlərinin ifasında geniş konsert proqramı ilə davam etdirilib.

"Babək 44" taborunun keçmiş döyüşçüləri ön xəttə gedərək, səngərdə xidmət edən əsgər və zabitlərlə də görüşüblər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Şəhidlərin xatirəsi hər zaman əziz tutulur

Bu gün düşmənlə 168 kilometr məsafədə sərhəddə olan Qazax rayonunun Bağanıs Ayrım, Xeyrimli, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskipara və Aşağı Əskipara kimi 7 kəndi düşmən tapdağı altındadır. 5 kəndi isə daim düşmən gülləsinin atəşinə məruz qalır. Ərazi bütövlüyü uğrunda 287 nəfər şəhid verən, 7 nəfər igid oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Qazaxda şəhidlərimizin xatirəsi hər zaman əziz tutulur və onların ailə üzvlərinə qayğı ilə yanaşılır.



Son 3 ildə rayonda Aprel şəhidləri kapitan Mühüd Orucovun, baş leytenant Elvin Namazovun və əsgər Orxan Əliyevin xatirəsini əbədiləşdirmək üçün şəhərin mərkəzində bulaqların tikilməsi, Milli qəhrəmanlar Alı Mustafayevin, Mərfət Nəsibovun, Firuddin Şamoyevin, Şamoy Çobanovun, Şahvələd Abbasovun, Qoşqar Qurbanovun, Qaratel Hacımahmudovanın adlarını daşıyan bulaqların, həmçinin "Şəhid polislərin xatirəsinə" ucaldılmış abidələrin yenidən qurulması bu istiqamətdə görülən işlərin bariz nümunəsidir.

Bu günlərdə isə rayonun Orta Salahlı kəndində daha bir şəhidin - Hacıyev Səməd Məmməd oğlunun adını daşıyan bulağın yenidənqurmadan sonra açılışı olmuşdur. Əvvəlcə şəhidlərimizin ruhuna dua oxunmuş, onların əziz xatirəsi böyük ehtiramla yad edilmişdir. Sonra bulaq kompleksinin açılışını bildirən qırmızı lent kəsilmiş, önünə tər qərənfillər düzülmüşdür.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açılış mərasimində çıxış edərək tədbir iştirakçılarını salamlamış və bulağın yenidən qurulmasında əməyi olan insanlara minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, şəhidlərə və onların ailələrinə qayğı hər zaman dövlətin diqqət mərkəzindədir. Odur ki, bu ailələr dövlətin, eləcə də rayon rəhbərliyinin hər zaman yanlarında olduqlarını hiss edirlər. Rayonda aparılan abadlıq və quruculuq işləri çərçivəsində şəhidlərimizin uyuduqları müqəddəs məkanlarda da xeyli iş görülmüşdür. Qəbiristanlıqlar, onların xatirəsinə ucaldılmış abidələr, parklar, bulaqlar, xiyabanlar abadlaşdırılmış, əsaslı şəkildə təmir edilmişdir. 287 nəfər Qazax şəhidinə sonsuz ehtiram nümayiş etdirilərək şəhərin mərkəzində yerləşən Şəhidlər xiyabanı tamamilə yenidən qurulmuşdur. Bu gün nəinki şəhid ailələri və rayon sakinləri, eləcə də Qazaxa səfər edən qonaqlar da qürur yerimiz olan bu müqəddəs məkana baş çəkir, memorial önünə tər çiçəklər düzür, igid oğullarımızın şəkli əks olunmuş lövhə önündən keçərək əziz xatirələrinə ehtiram göstərirlər. Rayonda keçirilən tədbirlər öncə həmin müqəddəs məkanı ziyarətlə başlayır. Məktəblilər mütəmadi olaraq xiyabanda olur, rayon şəhidləri haqqında ətraflı məlumatlar alır, onlarla bir daha qürur duyurlar.



Tədbirdə Prezident İlham Əliyev, eləcə də Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhidlərimizə və şəhid ailələrinə göstərilən hörmət və ehtiramdan da söhbət açılmışdır. Qeyd edilmişdir ki, bu gün ölkəmizdə dövlət başçısı tərəfindən sistemli ordu quruculuğu ilə yanaşı, vətənin bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərə və onların ailələrinə, həmçinin müharibə veteranlarına və əlillərinə böyük diqqət və qayğı göstərilir. Respublika Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini şəhid ailələrinin, müharibə veteranları və əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin həlli, ən əsası da hər cür qayğı ilə əhatə olunmaları təşkil edir.

Qüdrətli Azərbaycan Ordusunun Aprel zəfərindən danışılarkən həmin şanlı tarixin yazılmasında Qazax rayonunun 3 nəfər igidinin - Fərəhli kəndindən kapitan Orucov Mühüd Qurban oğlunun, Yuxarı Salahlı kəndindən baş leytenant Namazov Elvin Məmməd oğlunun və Aslanbəyli kəndindən əsgər Əliyev Orxan Məhəmməd oğlunun da xidməti olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, Aprel döyüşləri bizi Qarabağda böyük qələbəmizə aparan şanlı yolun başlanğıcıdır. O yolu qət edən igid oğullarımızla bu gün başda Ali Baş Komandan olmaqla hər kəs fəxr edir və bundan sonra da fəxr edəcəkdir. Aprel döyüşü bir daha sübut etdi ki, Azərbaycanın igid və mərd oğulları həmişə olub və bundan sonra da olacaqdır.

"Hilal" Sosial Araşdırmalar İctimai Birliyinin sədri Arzuman Abdulkərimov, Milli Qəhrəman Alı Mustafayevin qardaşı Mahmud Mustafayev, Orta Salahlı kənd sakini Səid Abdulkərimov və başqaları çıxış edərək dövlət başçısı tərəfindən şəhid ailələrinə, Qarabağ müharibəsi veteranlarına və əlillərinə, məcburi köçkün ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


## BİLDİRİŞ

*"Azərbaycan İnvestisiya Şirkəti" ASC Hacıqabul və Sabirabad sənaye məhəllələrinin açılış tədbirlərinin təşkili ilə bağlı təşkilati işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan şirkətlər 012 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 04.10.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bildirir ki, Avropa İttifaqının "Regionların inkişafına dəstək Qrant Proqramı" çərçivəsində "İqtisadiyyat Nazirliyi üçün avadanlığın satın alınması" layihəsi ilə əlaqədar elan olunmuş açıq tenderdə iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Tender komissiyasının qərarına əsasən "Evrodizayn" QSC qalib elan edilmişdir.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun nəzdində olan sosial xidmət müəssisələri üçün istifadə ediləcək avadanlıqların satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun nəzdində olan sosial xidmət müəssisələri üçün istifadə ediləcək avadanlıqların satın alınması

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**

**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**H/h: AZ91CTRE00000000000002138206**
**Büdcə gəlirlərinin təsnifat kodu: - 142340**
**Büdcə səviyyəsinin kodu: - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə Satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **25.10.2019-cu il saat 18:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **30.10.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.10.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***


## Çin ən yeni qitələrarası ballistik raketini nümayiş etdirdi



Çin ÇXR-in yaradılmasının 70-ci ildönümü münasibətilə hərbi paradda ən yeni DF-41 qitələrarası ballistik raketini nümayiş etdirmişdir. Bu barədə yerli KİV xəbər verir.

Ölkədə dünən keçirilmiş hərbi paradda 15 min hərbçi, 580 vahid texnika, 160 təyyarə və helikopter iştirak etmişdir. Paradı ÇXR Sədri Si Cinpin qəbul etmişdir.

Yeni raketin hələ 2009-cu ildə paradda nümayiş etdiriləcəyi gözlənilirdi, lakin bu, baş vermədi. Bərk yanacaqla işləyən üçmərhələli DF-41 raketi 1980-ci illərdən bəri işlənib hazırlanırdı. Raketin sınaqları 2012-ci ildə başlamışdır.

Müxtəlif mənbələrin məlumatına görə, DF-41-in uçuş məsafəsi 12 min kilometrdən 14 min kilometrədəkdir. Raket 6-dan 9-dək manevr edən başlıq daşıya bilir. DF-41-in uzunluğu 21 metr, korpusunun diametri 2,2-2,5 metrdir. Raket yerüstü və mütəhərrik dəmir yolu platformasından, eləcə də şaxtadan buraxıla bilər. Müxtəlif mənbələrin məlumatına görə, atəş dəqiqliyi 100 metrdən 500 metrədəkdir.

## Son 50 ilin ən böyük aysberqi Antarktidadan aralandı



Antarktidada son 50 il ərzində ən böyük aysberq formalaşmışdır. Onun çəkisi təxminən 315 milyard ton, sahəsi 1636 kvadratkilometrdir. Aysberq D28 adını almışdır. Bu barədə BBC xəbər verir. D28 Antarktidanın cənub sahilində əmələ gəlmişdir. Alimlər bu nəhəng buz parçasının hərəkətini bütün vasitələrlə, o cümlədən süni peyklərin köməyi ilə diqqətlə izləyəcəklər, çünki aysberq yaxın gələcəkdə dəniz gəmiçiliyinə real təhlükə yarada bilər.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

***Bakı Dövlət Universiteti tərəfindən Nərmin Akif qızı Salamlının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.***

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 03.10.2019-cu il tarixdə gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərməsi imkanı təmin ediləcəkdir.


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Həmkarlar İttifaqlarının veteranı

**SEVİL İSLAMOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudov Gəncə İnzibati-İqtisadi Məhkəməsinin sədri Natiq Abbasova atası

**MEHDİ ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi universitetin İnformasiya və kompüter texnikası kafedrasının professoru

**NADİR KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Balakən rayonundan Hümbət Səlimov və Novruz Həsənquliyev Qərb Ərazi Baş Gömrük İdarəsinin rəis müavini Arif Quliyevə dayısı

**RAZİL SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8965
Sifariş 3870
Qiyməti 40 qəpik